**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN ŞEİRİNDƏ SİMVOLUN İDEYA-BƏDİİ XÜSUSİYYƏTLƏRİ VƏ POETİKASI (1920-60-CI İLLƏR)

İxtisas: 5715.01 – Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid

Elm sahəsi: Filologiya

İddiaçı: **Günay Ağaməhəmməd qızı Qarayeva**

Elmlər doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsində yerinə yetirilmişdir.

Rəsmi opponentlər: AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor **Tehran Əlişan oğlu Mustafayev**

filologiya elmləri doktoru, professor **Rəhilə Məmməd qızı Qeybullayeva**

filologiya elmləri doktoru, professor **Asif Abbas oğlu Hacıyev**

filologiya elmləri doktoru, professor **Şəhla Bədir qızı Nağıyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: ________________ AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor **İsa Əkbər oğlu Həbibbəyli**

Dissertasiya şurasının elmi katibi: ________________ filologiya üzrə fəlsəfə doktoru, dosent **İsmixan Məhəmməd oğlu Osmanlı**

Elmi seminarın sədri: ________________ filologiya elmləri doktoru, professor **Məmməd İrac oğlu Əliyev**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi:** Simvol dünyanı dərk və qavrama modeli olaraq bir çox elm sahələrinin (fəlsəfə, dinşünaslıq, dilçilik, sənətşünaslıq, ədəbiyyatşünaslıq, sosiologiya, psixologiya) araşdırma obyektinə çevrilmiş termin, anlayış kimi geniş istifadə olunan istilahlardan biridir.

XVIII əsrə qədər işarə kimi qəbul olunan simvol[1] XX əsrin ortalarına doğru müstəqillik hüququ qazansa da, simvolun interdesplinarlığı problemin öyrənilməsi, tədqiqi istiqamətində aparılan araşdırmalar biryönümlü şəkildə konkret sahə ilə məhdudlaşmır. Simvol semiotika, mifopoetika, hermenevtika, arxetiplər nəzəriyyəsi və eləcə də XX əsrdə yaranan yeni metod və təlimlər, nəzəriyyələrin əsasında duran mürəkkəb problemlərdən biri kimi aktuallıq kəsb edir[2]. Simvolun mahiyyəti nədir? Simvolun klassik və müasir dərk olunma meyarları arasında hansı sərhədlənmələr, fərqliliklər mövcuddur? Simvollar bəşəriyyətin ilkin işarə, ünsiyyət dilidir. Varlığın keçmiş və bu günlə yaradılan mənəvi, kulturoloji, tarixi bağlarını dil, yaddaş funksiyasında gerçəkləşdirən fenomendir. Simvol sənətkara obraz dili ilə dünyada, cəmiyyətdə, ictimai-sosial həyatda baş verənləri gizli kod və işarələrlə ifadə etmək imkanı verir. İnsan mənəviyyatının bioloji olaraq deyil, kulturoloji yaradılmış transendent axtarışlarının, gerçək olandan görünməyən tərəfləri dərk etmək, anlamaq üsuludur. Mədəniyyətin, mədəni qatların ötürücülük funksiyasını yerinə yetirən simvol *"mədəni*

---

[1] Тодоров, Ц. Теории символа:/ Ц.Тодоров. – пер. с фр. Бориса Нарумова. – Москва: Дом Интеллектуальной книги, – 1999. – с.232-240

[2] Соссюр, Ф. Труды по языкознанию:/ Ф. Соссюр. – пер. с фр. А.А.Холодовича. – Москва: Прогресс, – 1977. – 696 с; Елиаде, М. История веры и религиозных идей:/ М. Елиаде. – пер. с. фр. Н.Б.Абалакова, С.Г. Балашова, Н.Н.Кулакова. – Москва: Критерион, – 2002. - 622 с; Юнг К.Г. Человек и его символы:/ К.Г.Юнг. – пер. с анг. Е.С.Григорьева. – Москва: БСХ, - 1996. - 256 с; Барт, Р. Избранные работы: Семиотика. Поэтика: / Р. Барт. – пер с фр. сост., общ. ред. и вступ. ст. Г.К.Косикова. – Москва: – Прогресс, - 1989. - 615 с

*yaddaş mexanizmini həyata keçirir”*[3], mətnləri, obraz və süjetləri yaddaşın saxlanc yeri kimi bir təbəqədən digər bir təbəqəyə ötürür. Simvolun mədəni, tarixi qatlarının zənginliyi ona mürəkkəblik gətirən amillərdən olsa da, bütün zamanlarda dərk olunma baxımından yeni və orjinaldır. Simvol görünən deyil, qavranılan gerçəklikdir. Görünən, dərk olunan, qavranılan gerçəkliyin əsasında, onun forma, məzmun özəlliklərini itirməyərək yaradılan real gerçəklikdir. Universallıq, əbədilik, dövrün, zamanın tələb və təbiətinə uyğun bədii düşüncə sərhədlərinin genişlənməsi klassik və müasir simvol anlayışı arasında paradiqmaların dəyişməsini, anlayışın sabit, dəyişməz təbiətinin yeni mənalandırmalarla zənginləşməsini də qaçılmaz edir. Klassik simvollar dini, mifoloji inanc sistemlərinə dayalı, mədəni qatlardan keçərək təkrarlanan, sabit və dəqiq mənalandırmalarla dərin fəlsəfi yükə, qatlara malik olsalar da, müəyyən mənada başa düşüləndir. Lakin çoxqatlılıq, fərdi-intuitiv yanaşma, subyektivlik müasir mərhələdə simvolun dərk olunma meyarlarının dəyişməsinə, obrazlılıq imkanlarının genişlənməsinə gətirib çıxarır. Vahid formada qəbul edilən konkret bir məfhumla bağlı təsəvvür toplusuna çevrilən simvol çeşidlənir, zamana uyğun çoxmənalılıq və subyektiv xüsusiyyətlər əldə edir.

XX əsr Azərbaycan şeirinin ümumi mənzərəsi və konket olaraq simvolik yaddaşına nəzər saldıqda universal, kollektiv düşüncə modeli olan simvollardakı etno-mədəni laylar, tarixi – kulturoloji bağlar, mentallıq və yenilənən simvolik sistemlərdə dəyişən zaman modeli, ideoloji meyar təsirlərini sistem daxilində izləmək mümükündür. Deməli, simvol sadəcə obraz funksiyası yerinə yetirmir, o kult, dəyər sistemini yeniləməklə qoruyucu funksiya daşıyır, mədəni qatların transformativliyini, yeni interpretasiyada təqdimini şərtləndirir.

XX əsrdə mərhələli şəkildə bədii düşüncədə mədəniyyətin alt qatlarına, şüuraltına enmə, şüur axınları simvol nəzəriyyəsində yeni mərhələnin başlanğıcı olmaqla yanaşı, simvolun yeni metod və nəzəriyyələr əsasında öyrənilməsi istiqamətində araşdırmaları daha

---

[3] Лотман, Ю. Избранные статьи. Статьи по семиотике и типологии культуры: [3 томах] / Ю. Лотман. – Таллин: Александра, – т.1. – 1992. – с.192

geniş müstəviyə çıxarmışdır. Simvolda obraz yaddaşı mətnə, mətndən isə süjetə keçir. Simvolu yalnız bir mədəniyyət daxilində öyrənib tədqiq etmək mümkün deyil. Mifoloji obraz və süjetlərin, miflərin, arxetiplərin törəyicisi olan simvolun semiotik-semantik funksiyası, məna qatlarının hermenevtikası onun universal və kommunikativ bağlarının müxtəlif mədəniyyətlər kontekstində müştərək öyrənilib, dəyərləndirilməsini tələb edir.

Simvol geniş anlayışdır. Etnik-mədəni şüurdan gələrək fərdin genetik yaddaşına istiqamətlənir, yaddaş nüvəsində olduğu üçün bədii mətndə artıq fərdə mənsubluğunu itirir, ümumiləşir. Y.Lotman yazır: *"Bu və ya digər mədəniyyətin simvollar strukturu fərdin genetik yaddaşının izofunksional və izomorf sistemini yaradır"*[4].

Simvol anlayışının mürəkkəb və zaman-zaman transformasiyalara uğrayan bir fenomen olmasının əsas səbəblərindən biri onun müxtəlif nəzəri sistemlər və metodologiyalar daxilində yer alması, uzun müddət müstəqil statusa malik olmaması və ona yaxın olan digər anlayışlar və poetik kateqoriyalarla sərhədlərinin bir-birinə nüfuz etməsidir. İşarə-simvol, simvol-metafora, simvol-alleqoriya, simvol-bədii müqayisə, simvol-obraz və digər anlayışlar arasındakı sıx əlaqə simvolun müstəqil konsept kimi dərk edilməsində müəyyən çətinliklər yaradır.

Simvol nəzəriyyəsi ilə bağlı maraqlı bir məqam da qeyd edilməlidir: simvollar öz semantik mahiyyətini qorumaqla yanaşı, daim yenilənə və dəyişilə bilir. Onların çoxqatlı və çoxmənalı olmasını şərtləndirən əsas amil zaman faktorudur (Eliade). Bu dinamik yanaşma Götenin Faust əsərində, Mefistofellə bağlanan müqavilə müxtəlif mədəni interpretasiyalarda yeni məna çalarları qazanır, Bodlerin Correspondances şeirində simvolların duyğusal və ruhani dünyalar arasında körpü rolunu oynamasında və ya Hüseyn Cavidin İblis faciəsində, Şeytanın alleqoriyadan çıxaraq daha dərin fəlsəfi və milli narahatlıqların rəmzi kimi təcəssüm tapmasında müşahidə edilə bilər. Cəlil Məmmədquluzadənin "Ölülər" pyesində qəhrəmanların ölülərlə dirilər arasında olan sərhəddə ilişib qalması

---

[4] Лотман, Ю. М. Внутри мыслящих миров. Человек – текст – семиосфера – история:/ Ю. Лотман. – Москва: Языки русской културы, – 1999. – с.160

simvolik məna daşıyır və avam cəmiyyətin tənqidi kimi çıxış edir. Səməd Vurğunun "Vaqif" dramında şairin obrazı təkcə tarixi şəxsiyyət kimi deyil, həm də xalqın düşüncəsinin, azadlıq və ədalət ideallarının simvolu kimi təqdim edilir.

Müasir dövrdə simvol anlayışı postmodernist yanaşmalar çərçivəsində yeni interpretasiyalar qazanır. Məsələn, Anar və Elçinin əsərlərində simvolika təkcə ədəbi fiqur kimi deyil, həm də oxucunun şüuraltı ilə oynayan məna kodu kimi istifadə olunur.

Beləliklə, simvol anlayışı daim yenilənən, müxtəlif mədəni kontekstlərdə fərqli məna çalarları qazanan dinamik bir struktur kimi çıxış edir. XX əsr Azərbaycan şeirinin problem üzrə təhlili əsasında bunu daha aydın görmək mümkündür. 1960-cı illərdən poeziyada yaranan fikir axınları, assosiativlik, bədii təfəkkürün mifə, folklora qayıdışı, yaddaşa dönüşü ənənəvi meyarları aşaraq simvolun yaradıcılıq imkanlarını daha da genişləndirdi. Bu isə konkret obrazın çeşidli, adekvat obrazlarla əvəzlənməsi, obrazın semantik çalarlarının fərdi-intuitiv məzmunda yeni məna qatlarının yaranması ilə diqqət çəkdi ki, simvolun təbiəti, onun anlaşılması, məğzinin açılması istiqamətində bədii düşüncənin arxalandığı və məcburiyyətdən irəli gələrək dayaqlandığı mənbə mif modelləri, obraz və süjetləri, gəzərgi süjetlər, arxetiplər və s. məsələlər bura daxildir. Simvolun anlaşılmasında mədəni mətnlərlə əlaqə yaratmaqla yanaşı, konkret zamanın, müəyyən ideoloji qurluşun meyarlarına əsaslanmadan nəticə əldə oluna bilməz. Deməli, simvolun anlaşılmasında iki əsas başlıca meyar vardır. Mədəniyyət faktı və zaman faktoru. Simvol bu iki meyar əsasında müəyyənləşə bilir.

Problemin nəzəri cəhətdən mürəkkəbliyini şərtləndirən amillər içərisində tədqiq olunan mərhələnin sosialist realizmi metodunun prinsiplərinə uyğun olaraq müəyyən, qəlibləşmiş ideoloji meyarlar əsasında qurulması (senzura, qlavlit, gizli sözə yer yoxdur), digər tərəfdən isə poeziyanın immanent qanunlarının bütün hallarda öz prinsiplərinə sadiq qalması, obrazlı, məcazi, gizli dilin poetik təfəkkürün orbitində mədəniyyət-yaddaş, şair-ideoloji quruluş, fərd-zaman dilemmasında ünsiyyətin, dioloqun ən etibarlı vasitə kimi aktuallığını qorumasıdır. XX əsr Azərbaycan şeirində bədii simvolun inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi ilə yanaşı, onun mövcud

simvolik sisteminə ənənədə mövcud olan simvolların davamı kimi nəzər yetirmək, mürəkkəb, dağınıq problem olan simvolun zamana uyğun dəyişkənliyini, semiosferasının milli ədəbiyyatşünaslıq müstəvisində araşdırılması, simvolik düşüncə qaynaqlarının müasir şeirimizdə dayanıqlığının təsbiti işin aktuallığını şərtləndirən amillərdəndir.

Azərbaycan ədəbiyyatşünaslığında bədii simvol probleminin müxtəlif kontekstlərdə öyrənilməsi istiqamətində tədqiqatlar aparılsa da, ədəbi-bədii düşüncədə mürəkkəb və ziddiyyətli mərhələ olan XX əsr Azərbaycan şeirində bədii simvolun təzahürünü izləmək, təkcə estetik kateqoriya kimi deyil, həm də mədəni-ənənəvi kontekstdə, dövr, zaman, cəmiyyət, ayrı-ayrı metod və simvolik sistemlər daxilində ədəbi-fəlsəfi yönümdən araşdırılması dissertasiyanın əsasını təşkil edir.

Simvoldakı universallıq, mədəni, mənəvi bağlar ona bir neçə mərhələ daxilində yanaşmağı tələb edir. Dissertasiya XX əsr Azərbaycan şeirində bədii simvolun poetikasını, simvolik model dəyişiminin (bu romantik ədəbiyyatda, Cümhuriyyət dövrü Azərbaycan şeirində, sovet dövrü və possovet ədəbiyyatında daha çox nəzərə çarpır) fərqliliyini təsbitləyən tarixi, kulturoloji, ictimai-siyasi, ideoloji faktorlar istiqamətində sistemli şəkildə izləmək və dəyərləndirmək baxımından aktuallıq kəsb edir.

Bədii mətn, süjet daxilində simvolun yerinin müəyyənləşdirilməsi və təyinatında simvola fəlsəfi, etnoqrafik, ədəbiyyatşünaslıq, linqvistik, nəzəri-stilistik, üslubi və s. nöqteyi-nəzərdən Y.M.Lotman, A.A.Potebnya, A.F.Losev, S.S.Averentsev, A.A.Auer, V.N.Toparov, A.V.Karpenkonun və b. tədqiqatlarında geniş yanaşılmış, simvol problemi sistemli araşdırılmışdır.

Çağdaş ədəbiyyatşünaslıqda da simvolun elmi-nəzəri müstəvidə müxtəlif istiqamətlərdən intertekstual, koqnitiv və linqvomədəni aspektləri, tarixi-fəlsəfi, mədəni-ənənəvi, poetika məsələləri ayrı-ayrı yaradıcılıq və mərhələlər əsasında tədqiq olunur. XXI yüzillikdə milli ədəbiyyatşünaslıqda simvol probleminin araşdırılması istiqamətində tədqiqatlar daha intensiv xarakter almış, dissertasiya, monoqrafik tədqiqatlar yazılmış, mifopoetika, semiotika, linqvistika, ayrı-ayrı metod və cərəyanlar, nəzəri sistemlər əsasında bədii simvolun tədqiqi

sahəsində ciddi addımlar atılmışdır.

Mətanət Maşallahqızı (Abbasova) "Klassik Azərbaycan hekayəsində bədii simvol" monoqrafiyasında simvol anlayışı, mahiyyət və strukturu, təzahür formaları və s. nəzəri məsələləri realist və romantik cərəyanlar kontekstində araşdırır, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli, A.Şaiq, S.M.Qənizadə, N.Nərimanov və b. yaradıcılıq nümunələri problem istiqamətində təhlil olunur, hekayə janrında bədii simvolun növləri, bədii mətndə, süjet daxilində təzahürü izlənilir.

Aygün Qasımovanın "XX əsr Azərbaycan poeziyasında folklor simvolikası (1960-2000-ci illər) tədqiqatında isə poeziyada folklor simvollarından istifadə üsulları, bədii düşüncədə kökə, mənşəyə qayıdış, milli, tarixi kimlik, istiqlal düşüncəsinin formalaşmasında simvolun tarixi-mənəvi, mədəni səciyyəsi verilmiş, tarixi-müqayisəli metod əsasında təhlillər aparılmışdır.

Ətrabə Gülün "Təbiətlə bağlı simvollar intertekstual kontekstdə" adlı doktorluq dissertasiyası Azərbaycan və dünya ədəbiyyatında təbiət simvollarının intertekstual, semiotik-semantik, mifoloji metodlar və mifopoetik təhlil prinsiplərinə əsaslanaraq problemin konseptual araşdırılmasına həsr olunmuşdur. Tədqiqatda simvol anlayışının təyinatı, terminoloji və etimoloji amillərin simvolik məzmuna təsir mexanizmi izlənilir, simvolun işarəvilik, obrazlılıq xüsusiyyətlərinə diqqət yönəldilir, etno-mədəni sistemlər arasında intertekstual təhlillər aparılır, mifdən folklora, folklardan ədəbiyyata keçiddə simvolik təfəkkürün dəyişkənliyi Şərq və Qərb ənənələri kontekstində araşdırılır, koqnitiv məzmununa aydınlıq gətirilir.

Bununla yanaşı Q.Quliyev, A.Məmmədov, A.Hacıyev, R.Qeybullayeva, C.Bəydili, T.Məmməd, P.Bəkirqızı, S.Qarayev, G.Qocayevanın və b. intertekstual, koqnitiv, semiotik-semantik təhlil, ədəbi cərəyan və yaradıcılıq metodları, mifoloji semantika, mifopoetik təfəkkür, mif modellərinə əsaslanan araşdırmalarında da simvol probleminə ənənə və nəzəri sistemlər əsasında toxunulmuşdur. R.Qeybullayevanın tədqiqatlarında simvola müstəqil araşdırma obyekti kimi deyil, müxtəlif mədəniyyət qatlarında söz, simvolların semantik mənalandırmalarındakı bənzərliklərə nəzər yetirilir, semiotik, semantik-struktur təhlil metododları ilə bu bənzərliklər

*"mədəniyyət evolyusiyanın replikatoru və ya izosemantizmi olaraq ədəbiyyatşünaslıq, dilçilik, tarix, mədəniyyətşünaslıq, dinşünaslıq kimi elmlərin qovşağında üzə çıxır"*[5], söz laylarının bir mədəniyyətdən digər mədəniyyətə keçidi, transformativ xüsusiyyətləri izlənilir.

Simvol haqqında mövcud nəzəriyyələri ümumiləşdirərək simvolun tarixi-mədəni kontekstdə dəyərləndirilməsi, XX əsr Azərbaycan şeirində simvolun mifoloji, folklor qaynaqlarının təzahür xüsusiyyətlərini izləmək, ədəbi yaddaşda mövcud olan simvolik sistemlərin transformasiyası, mifin sosial mexanizmə çevrilmə prosesində ideoloji və zaman faktorundan irəli gələn amillər, ənənəvi simvolların yeni interpretasiyada təqdimi və s. məsələlərin həlli ilk dəfə olaraq araşdırılır.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqat işinin əsas obyektini simvol anlayışı, bədii simvolun struktur-semantik səciyyəsinin mədəni, ədəbi mərhələlər üzrə araşdırılması təşkil edir. Dissertasiya işində Azərbaycan şeirində qeyd olunan mərhələ üzrə bədii simvol problemi araşdırılaraq təhlillər aparılır.

Tədqiqatın predmetini isə XX əsr Azərbaycan şeirinin 1920-60-cı illər mərhələsində bədii simvolun ideya-məzmun özəlliklərinin, poetikasının rus, Avropa, türk alimlərinin nəzəri görüşləri və şeir nümunələri əsasında tədqiqi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın əsas məqsədi XX əsr Azərbaycan şeirində simvolun poetikasını, mərhələlər üzrə inkişaf mexanizmini izləmək, bədii mətndə ideya-məzmun xüsusiyyətlərinin elmi-nəzəri şərhini əsaslandırmaqdır. Mövzunun sistemli və konseptual araşdırılması üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

1. Problemin araşdırılmasına ilk olaraq simvolun nəzəri təyinatı ilə başlamaq, mövcud nəzəri konsepsiyalar əsasında elmi izahını vermək;
2. Simvolun anlayış, termin, poetik kateqoriya, bədii obraz kimi çeşidli anlamlarına nəzər yetirmək, müxtəlif elm sahələrinin

---

[5] Qeybullayeva, R.M. Arxetip semantik reinterpretasiya vahidi kimi və Azərbaycan ədəbiyyatında sufi terminləri // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, Humanitar elmlər seriyası, – 2016. №2, – s. 165

obyektivində mürəkkəb funksiyaya malik olan simvolun ədəbiyyatşünaslıq elmində sərhədlərini müəyyənləşdirmək;

3. Simvolun bədii obrazın tərkib elementi kimi obraz və ideya daşıyıcısı funksiyasını əsaslandırmaq, obraz-simvol əlaqələrinin şərhini vermək;

4. Azərbaycan poeziyasında simvolun etno-mədəni qaynaqlarına nəzər yetirmək, mif-simvol əlaqələri, folklordan gələn mifopoetik obrazların, klassik şeirin simvolik sistemində modelləşən mifoloji obraz və süjetlərin yazılı ədəbiyyatda interpretasiyasını, transformasiyasını araşdırmaq;

5. Sovet proletar şeirində ideoloji təzyiqlərin poetik təfəkkürə təsir mexanizmini izləmək, simvolun universal, ənənəvi, mədəni, tarixi, ideoloji kontekstdə yeni interpretasiyada təqdimini nəzəri-praktik təhlillərlə əsaslandırmaq;

6. XX əsr Azərbaycan şeirində klassik simvolikanın interpretasiyası, obraz, motiv transformasiyasında yeni simvolik model "neosufizm" anlayışının simvolik sistemə, romantik ədəbiyyata təsir xüsusiyyətlərini müəyyənləşdirmək;

7. Təbiət obraz və simvollarının semantikası, funksiya və tipologiyası, təbiət simvollarında zaman və cəmiyyət tandemi, bədii simvolda ekomədəniyyətdən ekocəmiyyətə inteqrasiya problemini araşdırmaq;

8. Simvolik polisemiya, bədii simvolda intertekstuallıq məsələlərini tədqiq etmək;

9. XX əsr Azərbaycan şeirində bədii simvolun poetikası məsələlərinin şərhi, süjetin formalaşmasında simvolun rolu, simvol-metafora, simvol-alleqoriya, simvol- bədii detal əlaqələri, rəng simvolikası, rənglərin simvolik təyinatını araşdırmaq;

**Tədqiqatın metodları:** XX əsr Azərbaycan şeirinin 1920-60-cı illər mərhələsində bədii simvolun poetik funksiyasını araşdırarkən müqayisəli-tipoloji, intertekstual, simvolun işarəvi xüsusiyyətlərini nəzərə alaraq semiotik yanaşma üsulu əsas götürülür. Simvolun çoxçalarlığı, funksional zənginliyi tarixi-müqayisəli, nəzəri-tipoloji, struktur-semantik metodlardan istifadəyə də imkan yaradır. Dissertasiyada Azərbaycan, rus, türk və Avropa alimlərinin müvafiq araşdırmalarına istinad edilir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqat işində aşağıdakı müddəalar müdafiəyə çıxarılmışdır:

- XX əsr ədəbi-nəzəri fikrində simvol nəzəriyyəsi özündə iki mərhələni ehtiva edir. XX əsrin əvvəlləri (simvol hələ müxtəlif nəzəri sistemlərin tərkibindədir) və XX əsrin 60-cı illərindən sonrakı mərhələ (simvol artıq müstəqil anlayış kimi öyrənilir);

- Simvol probleminin nəzəri araşdırılmasında dünya ədəbi-nəzəri fikrində köklü konsepsiyalar mövcuddur. A.A.Potebnya, V.İvanov, A.N.Veselovski, V.V.Vinoqradov, E.Kassirer, F.V.Şellinq, S.Todorov, A.F.Losev, R.Bart, K.Levi-Strauss, V.Y.Propp, Y.M.Lotman, C.Bodriyar, V.A.Uspenski, E.M.Kovalenko və b. fikir və mülahizələri əsasında bədii simvolun nəzəri aspektlərinin şərhində zaman və dövrə uyğun olaraq ideya dəyişiminin simvola təsir funksiyası əsas götürülür, simvolda ideya dəyişimi və ideya daşıyıcı olması onun fərqləndirici xüsusiyyətidir;

- Simvol bədii obrazın tərkib elementi və poetik fikrin təkamül göstəricisi kimi poetik kateqoriyaların ümumiləşdirilmiş tipi olaraq obrazlılıq funksiyasında ideya daşıyıcısıdır;

- XX əsr Azərbaycan şeirində mifologiya və folklora dayalı olan simvolik obrazların yeni konstruksiyaları, interpretasiyası, ənənəvi simvolların müəyyən dərəcədə "işğala" məruz qalması, mifoloji təfəkkürdən və folklordan gələn simvolların ideoloji simvola transformasiyası, sovet mifi, proletar şeirində yeni mifoloji simvolları meydana çıxarmışdır;

- 1920-1950-ci illərdə Azərbaycan şeirində sovet ideologiyasının, proletar ədəbiyyatın formalaşdırdığı yeni simvolik sistemdə obrazda simvolik ideyanın dəyişimi, milli düşüncədə sabitləşən simvollara adekvat obrazların yaranması müşahidə olundu;

- XX əsr Azərbaycan şeirində milli romantizmdən əsas götürən simvolik model dəyişimi mifologiyadan-neomifologizmə, sufizmdən-neosufizmə keçiddə yeni simvolik modeli şərtləndirdi;

- XX əsr Azərbaycan şeirində bədii simvolun yaranmasında həm ənənəvi, həm də universal təbiət elementlərinin rolu aparıcı olmuşdur. XX əsrin ortalarına doğru poeziyada yeni üslubi istiqamətlərin formalaşması, şairin fərdi-intuitiv yaddaşından gələn, ekomədəniyyətdən ekocəmiyyətə keçiddə dəyişilən obraz-simvollar

bədii simvolun ənənəvi dərk üsulunda dəyişikliklər yaratmışdır;

- Bədii simvol və ekopoetika. Simvol, mədəniyyət, cəmiyyət üçlüyü ekomədəniyyətdən ekocəmiyyətə inteqrasiyada yeni simvolik model kimi təsdiqini tapır;

- XX əsrin 60-cı illərinə doğru bədii düşüncənin keçmişə, yaddaşa, folklora qayıdışı, bədii simvolların işləklik funksiyasını dinamikləşdirmişdir. Mədəniyyətin alt qatında mövcud obraz-simvolların şairlərin fərdi-intuitiv yaddaşı və milli mədəniyyətin fenomenal yaddaşı ilə sintezləşməsi ənənənin yeni inteqrasiya formasıdır;

- Süjet və simvol əlaqələrində bədii simvol obraz tipində süjetin inkişafını istiqamətləndirən, dəyişən, ideyayaradıcı funksiyaya malikdir. Bədii mətndə simvol poetik kateqoriyaların funksiyasını ümumiləşdirir, obrazı müəyyən bir ideyanın yaranmasına istiqamətləndirir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada XX əsr Azərbaycan şeirinin 1920-60-cı illər mərhələsində bədii simvolun poetikası sistemli və konseptual şəkildə araşdırılmış, bədii mətndə, süjet daxilində simvolun rolu və funksiyası müəyyənləşdirilmiş, bədii metod, zaman kontekstində simvola müxtəlif aspektlərdən aydınlıq gətirilmişdir.

1. Dissertasiyada simvol anlayışının müasir etapda formalaşmış mənası əsas götürülmüş, struktur-semantik xüsusiyyətləri, mədəni-kanonik təzahürləri şərh olunmuş, dünya ədəbi-nəzəri fikrində problemin araşdırılmasında mövcud konsepsiyalar sistemləşdirilmişdir;

2. Simvolun bədii obrazlar sistemində yeri, obraz-simvol əlaqələri, bədii simvolun ideya daşıyıcısı kimi poetik fikrin təkamülündə rolu araşdırılmışdır. Bədii süjet daxilində simvolun xarakteri, mahiyyəti və funksiyası əsaslandırılmışdır;

3. Azərbaycan poeziyasında simvolun mifoloji, folklor qaynaqları XX əsr Azərbaycan şeiri müstəvisində paralel olaraq öyrənilmiş, mif-simvol əlaqələri, folklordan gələn mifoloji obrazların, klassik şeirin simvolik sistemində yeni formada modelləşən arxaik süjetlərin simvolik obrazlılıq keyfiyyətləri geniş şəkildə araşdırılmış, ideoloji simvollar, sovet mifi, simvol modifikasiyası və s. məsələlər

ilk dəfə olaraq tədqiq olunmuşdur;

4. XX əsr Azərbaycan şeirində model, obraz, motiv transformasiyasında simvolik sistemin yenilənməsi, sufizmdən-neosufizmə keçiddə model dəyişimi nəzəri və bədii materiallar əsasında təhlilə cəlb edilərək elmi-bədii faktlarla təsbit olunmuşdur. Araşdırma zamanı obrazda ideyanın olması bədii simvolu digər poetik kateqoriyalardan fərqləndirən xüsusiyyət kimi nəzərə çatdırılır. Eyni simvolun müxtəlif dövr və zaman kontekstində təkrarlanmasında fərqləndirici xüsusiyyət onda müəyyən bir ideyanın olmasıdır. Əgər simvol ənənəvi semantik mənanı qorumaqla təkrarlanırsa, ideya dəyişir, yenilənir, yəni, ideya təkrarlanmır, onun əsasında fərqli bir zamanın, dövrün fəlsəfi-ideoloji düşüncəsi dayanır. Bu baxımdan zaman faktorunun simvol nəzəriyyəsində qabardılması və bu kontekstdə təhlillərin aparılması, zaman bədii simvol və yaxud simvolik modeldə ümumiləşdirilən fikrin bətnindən doğulan obrazdır qənaəti istiqamətində aparılan təhlillər işin elmi dəyərini əsaslandıran əsas faktorlardan biridir;

5. Dissertasiyada romantik şeirdə ənənədən gələn simvolların transformasiyasında model dəyişimi, simvolik sistemin yenilənməsi, ilahi eşqdən sosial təsəvvüfə keçid və s. məsələlər geniş şərh olunur;

6. XX əsr Azərbaycan şeirində təbiət obraz və simvollarının semantikası, bədii simvolun yaranmasında təbiət elementlərinin yeri, təbiət obyektlərinin simvollaşmasında obraz-simvolun ənənəvi struktur modeldən uzaqlaşaraq fərdi-intuitiv səciyyə daşıması simvolun çoxçalarlığını genişləndirdi. Dissertasiyada bədii simvolda zaman və cəmiyyət tandemi, ekomədəniyyətdən ekocəmiyyətə keçiddə bədii simvolun məna çalarlığındakı yeniliklər ilk dəfə olaraq araşdırılmışdır;

7. Polisemiyanın obraz-simvollara təsiri, ənənəvi simvollarda ideoloji kontekst, bədii simvolda intertekstualıq məsələləri geniş şərh olunmuşdur;

8. XX əsr Azərbaycan şeirində bədii simvolun poetikası məsələsi qoyulmuş, süjetin formalaşmasında bədii simvolun rolunun şərhində süjet-simvol, bədii mətndə simvolun funksiyası, süjetin qurulmasında poetik kateqoriyaların rolu araşdırılmışdır;

9. Simvol-metafora, simvol-alleqoriya, simvol – bədii detal

interplayı, onların oxşar və fərqli cəhətləri nəzəri, bədii materallar əsasında tədqiq olunmuş, rənglərin ənənəvi və müasir mənalandırmaları, ayrı-ayrı rənglərin poetik təyinatı əsaslandırılmışdır.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqat həm nəzəri, həm də praktik əhəmiyyətə malikdir. Dissertasiyada əldə olunan elmi nəticələrdən ədəbiyyatşünaslıqda simvol problemi ilə bağlı aparılan yeni araşdırmalarda istifadə oluna bilər. Təqdim olunan tədqiqatın əhəmiyyəti bir neçə cəhətdən önəmlidir:

Tədqiqat işi ədəbiyyat və mədəniyyətdə simvolların qatlı mənalar daşımasını və zamanla necə dəyişdiyini anlamağa imkan verən nəzəri çərçivə təqdim edir. Obyektli obrazın, semantik məzmunun və assosiativ əlaqələrin qarşılıqlı təsirini araşdırmaq poetik fikrin təkamülünü və mənanın necə qurulduğunu daha yaxşı başa düşməyə yardım edir. Bu cür yanaşma ədəbiyyat, fəlsəfə, dilçilik və mədəniyyət araşdırmalarını birləşdirərək mətni tək bir kontekstdə deyil, daha geniş mədəni və simvolik sistemlər daxilində interdisplinar qiymətləndirməyə imkan yaradır.

Bədii simvolun poetikası, simvolik sistemin mərhələlər üzrə yenilənmə mexanizmi, ədəbiyyatşünaslıqda poetik kateqoriyalar ətrafında yaranan mübahisələrin həlli istiqamətində, bütövlükdə simvol probleminin nəzəri-tarixi aspektdə araşdırılmasında işin nəticə və yeniliklərindən faydalanaraq yeni tədqiqatların yaranması imkanı əldə etmək mümkündür. İşin praktik əhəmiyyətinə gəldikdə isə, ədəbiyyatşünaslıq elminin nəzəri problemləri və eləcə də ədəbiyyat nəzəriyyəsi fənninin tədrisində dərs vəsaiti kimi istifadə etmək mümkündür.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas müddəa və nəticələri Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi jurnallarda, həmçinin xarici ölkələrin nüfuzlu elmi jurnallarında, beynəlxalq xülasələndirmə və indeksləşmə sisteminə (bazalarına) daxil edilən Scopus, Web of Science, Copernicus elmi nəşrlərdə, ölkə daxilində və xarici ölkələrdə keçirilən beynəlxalq konfransların materiallarında əks olunmuşdur.

Tədqiqatın nəticələri ali məktəblərin bakalavr və magistr hazırlığında Azərbaycan ədəbiyyatı və poetika ilə bağlı ixtisas fənlərinin tədrisində, eləcə də bədii simvol problemi ilə bağlı metodik

vəsaitlərin tərtibində istifadə oluna bilər.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiya işinin strukturu və ümumi həcmi.** Dissertasiya işi giriş (22783 şərti işarə), dörd fəsil (birinci fəsil iki paraqraf – 72053 şərti işarə, ikinci fəsil üç paraqraf – 111939 şərti işarə, üçüncü fəsil beş paraqraf – 92238 şərti işarə, dördüncü fəsil üç paraqraf – 88625 şərti işarə), nəticə (14377 şərti işarə) və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiya işinin ümumi həcmi 402015 şərti işarədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri, nəzəri-metodoloji əsaslarından bəhs edilmiş, müdafiəyə çıxarılan əsas müddəalar göstərilmiş, dissertasiya işinin elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti əsaslandırılmışdır.

Dissertasiyanın "**Simvolun elmi –nəzəri səciyyəsi"** adlanan birinci fəsli iki paraqrafdan ibarətdir. Fəslin **"Simvol anlayışı. Dünya ədəbi-nəzəri fikrində simvol haqqında aparıcı konsepsiyalar"** adlı birinci paraqrafında ədəbi-nəzəri fikrin əsas istiqamətlərindən olan simvol anlayışının tarixi-nəzəri inkişafına nəzər salınır, F.Sossur, E.Sepir, A.A.Potebnya, A.N.Veselovski, V.V.Vinoqradov, A.F.Losev, Y.M.Lotman, Y.S.Stepanova, N.D.Arutyunov, V.Ternera, S.Todorov, E.Beyts, A.V.Karpenko, E.M.Kovalenko və b. nəzəri baxışları və aparıcı simvol konsepsiyaları sistemləşdirilərək ümumiləşdirilir. Qeyd olunur ki, müxtəlif elm sahələrində simvolun funksiyası, yeri, dərk modeli bir-birindən fərqlidir. Simvol məntiq, riyaziyyat, fəlsəfə, dilçilik və d. elm sahələrində bir termin, istilah kimi, ədəbiyyatşünaslıq elmində isə, daha çox bədii simvol anlayışından istifadə olunur.

Paraqrafda simvol sözünün etimologiyasına nəzər salınır, kök etibarilə simvol sözünün yunan dilindən gəldiyi və ümumi anlamda "işarə", "tanıtım sənədi", "məcaz" mənalarını ifadə etdiyi vurğulanır, simvol sözünə adekvat olaraq müxtəlif xalqların ədəbiyyatında

dominantlıq qazanan fərqli söz və anlayışlara da rast gəlindiyi qeyd olunur. Azərbaycan ədəbiyyatşünaslığında gizli işarə, müəyyən jestlərlə nəyi isə ifadə etmək, açıqlamaq mənası ilə simvolun bəzən rəmz ilə əvəz olunduğu, lakin rəmzin, nisbətən mühitlə, arealla çərçivələnmiş bir məfhum olduğu, simvolun isə daha çox qədimliyə, eyni zamanda qloballığa, ümumiliyə meyilliyi göstərilir.

Simvolun əsas özəlliklərindən biri diqqəti üzərinə çəkdiyi obyektdən kənar başqa nəyə isə işarə etməsidir. Simvolda işarə funksiyası baxımından iki tərəf görünür. İşarələnənlə bu və ya digər dərəcədə əlamətləri üst-üstə düşüb zaman və məkan əlaqəsi olanlar, digər qrup isə işarələnənlə münasibəti, əlaqəsi şərti olanlar. Deməli, simvol ilk olaraq özündənkənar nəyə isə işarə edir və simvola mürəkkəblik gətirən məqam işarənin xaricində işarələnənin daşıdığı mənadır. Bu məna isə birbaşa şəkildə təqdim etmək, göstərmək, izahat vermək funksiyasından fərqlənir. İşarə ilə simvol arasında ortaq məqam onların hər ikisinin iki tərəfi – həqiqi və məcazi tərəfin olmasıdır. Lakin işarədə işarə olunanla işarə edilən arasında ümumi bağlılıq olmaya da bilər, yəni bu müəyyən dərəcədə qəbul edilmişdir. Simvolda isə, bu mütləqdir. İşarə edən deyil, işarə olunan realdır, həqiqidir.

Problemin termin, anlayış və eləcə də sırf ədəbi-nəzəri müstəvidə poetik kateqoriya kimi araşdırılması fərqli fəlsəfi, nəzəri, stilistik yanaşmalar meydana çıxarmışdır. A.A.Potebnya, A.İvanov, A.N.Veselovski, V.V.Vinoqradov, A.F.Losev və b. fəlsəfi, nəzəri görüşlərində simvol problemi, simvol-işarə, simvol-obraz əlaqələri şərh olunmuş, XX əsrin 70-ci illərindən başlayaraq simvol probleminin tədqiqi və onun bir anlayış kimi ayrı-ayrı mədəniyyətlərin obyektivində öyrənilib təhlil olunması istiqamətində ciddi tədqiqatlar aparıldığı qeyd olunmuşdur.

Simvolda ümumiləşdirmə onun digər poetik kateqoriyalardan fərqliliyidir. Simvolun semantik strukturu S.S.Avarentsevin qeyd etdiyi kimi, *"hər bir konkret hadisə vasitəsilə dünyanın vahid obrazını verməyə yönəlib"*[6]. Bu kontekstdə simvolun çoxqatlılığı fəlsəfi təfəkkürdə bir çox nəzəriyyələrin yaranması, problemə psixoloji,

---

[6] Аверинцев, С.С. Символ. / С.С. Аверинцев. – Киев: София-Логос. – Дух і Литера, - 2001. – с .156

mədəni, kulturoloji, tarixi, linqvistik nöqteyi-nəzərdən yanaşılması, fərqli metodologiyadan çıxış edərək məsələnin müxtəlif aspektlərdən dərki problemin ədəbi müstəviyə gətirilərək onun şərh olunmasını tələb edir. Simvol nəzəriyyəsi istiqamətində aparılan tədqiqatlar XX əsrin əvvəlləri və son rübü olaraq elmi ədəbiyyatşünaslıqda əsasən iki mərhələni təşkil edir ki, ilkin mərhələdə müəyyən konsepsiya və nəzəriyyələr birbaşa şəkildə simvolla əlaqəli olmasa da, sonrakı mərhələdə simvolun müstəqil öyrənilməsi və tədqiq olunmasında xüsusi əhəmiyyət kəsb edir.

Hər hansı bir mədəniyyətin dayanıqlı olması onun simvolik sisteminin köklü olması ilə ölçülür. Y.Lotman qeyd edir ki, *"...simvolun mahiyyəti ikilidir. Bir tərəfdən mədəniyyətlərin dərinliklərinə nüfuz edərək simvol öz dəyişməz mahiyyətində reallaşır. Bu baxımdan biz onu təkrarən müşahidə edə bilirik (mədəniyyətin xatırladıcısı kimi çıxış edir). Digər tərəfdən, simvol mədəni kontekstlə aktiv şəkildə əlaqələndirilir, onun təsiri altında dəyişir"*[7].

Problemin mövcud nəzəriyyələr və konsepsiyalar əsasında mürəkkəbliyini şərtləndirən amillərdən biri simvolun işarə, obraz, metafora, alleqoriya və s. poetik kateqoriyalarla sıx bağlantı, bənzərliyin olmasından irəli gəlir. Paraqrafda bu mürəkkəb sərhədlənmə və bəzən sinonim, bəzən isə eyni funksiya daşıyıcısı kimi anlaşılan məcaz növləri arasında mövcud əlaqələr, bənzərlik, bağlantı və fərqliliklər ümumiləşdirilərək belə qənaətə gəlinir ki, simvol obrazlılığın üst qatıdır. Digər obrazlılıq elementlərindən fərqli olaraq bədii simvol təsvir və təqdimatla kifayətlənmir, ümumiləşdirilmiş ideyaya əsaslanır. Simvolun fərqləndirici xüsusiyyəti obrazın məna qatının sabitliyinin hər mərhələdə dəyişən ideyaya uyğun yenilənməsidir. Əslində bu simvolun ona yaxın poetik kateqoriyalardan ciddi fərqidir.

Fəslin **"Simvol bədii obrazlar sistemində. Simvolun poetik obraz və ideyalılıq funksiyası"** adlanan ikinci paraqrafında simvolun xarakteristikasının, mahiyyətinin açıqlamasını verən çoxlu sayda estetika, ensiklopediya lüğətlərində simvolun işarə, bədii obraz kimi

[7] Лотман, Ю.М. Символ в системе культуры. Статьи по семиотике и топологии культуры [3 томах]./ Ю.М. Лотман. – Таллин. – Александра, – т.1. – 1992. – с.192

götürüldüyü, onlar arasında sərhədlərin nisbətinin əksər hallarda açıqlanmadığı, bəzən isə qarışq salındığı vurğulanır. Bu məsələlərin geniş şərhini verərkən S.S.Averntsevin simvolun təyinatında predmetli obraz və dərin mənanı iki qütb kimi əsas məqamlardan biri kimi götürərək, *"Hər bir simvolda obraz var və hər bir obrazda heç olmasa müəyyən dərəcədə simvol var. Obraz kateqoriyası predmet oxşarlığını güman edir, simvol kateqoriyası həminki mahiyyətin başqa tərəfini nəzərə çarpdırır. Predmet obrazı və dərin məna iki qütb kimi simvolun strukturunda çıxış edir. Obraz simvola keçərək "şəffaflaşır", məna onun içərisindən işıqlanır"*[8] fikrinə əsaslanaraq, bədii obraz olaraq simvolda əsas aparıcı xüsusiyyət predmetli obrazın varlığı, dərin mənalılıq və obrazın real görüntüsündən uzaqlaşan, öz nüvəsində mətndən kənar yaranan obraz`arasında əlaqə və ümumiləşdirmə əsas götürülür. Simvol obrazda predmet – məna – ideya olmaqla üç əsas tərəfi təzahür etdirməlidir. Dissertasiyada S.S.Avarentsev, L.V.Polukarova və P.D.Miniçkinin nəzəri görüşlərindən çıxış edərək bədii obraz kimi simvolun xarakteri, mahiyyəti, bədii süjet daxilində funksiyası (1. Predmetli obrazın olması; 2. Görüntüyə gətirilən təsvirin və ya predmetin semantik məzmun və çoxmənalılığı; 3. Bənzəyənlə bənzədilən və mənalandırılan arasında məntiqi assosiativ əlaqənin qurulması) semantik üçbucaqla üç istiqamətdə təsnif olunur.

Həmin semantik üçbucağı M.Müşfiqin "Göy göl" şeirinə tətbiq etməklə bədii obraz kimi Göy gölün şairin düşüncəsi, lirik qavrayışı üçün əsas obyekt olaraq obrazlaşmasını və simvola çevrilərək dominant kimi "birləşdirici və konkretləşdirici" funksiyaları yerinə yetirdiyini görmüş oluruq.

Aparılan təhlillər zamanı belə qənaətə gəlinir ki, simvol obraz tipində süjetin inkişafını istiqamətləndirən, dəyişən və formalaşdıran, ideya daşıyıcısı kimi əsas aparıcı komponentlərdən biridir. Bədii mətndə simvol obrazdır. Süjetin inkişafında "məcazlar ailəsi"nin bir araya gəlməsi, şaxələnmiş mətnin dinamik inkişafında konkret ideyanın ümumiləşməsi yönümündə obraz simvola çevrilir. Bədii

---

[8] Аверинцев, С.С. Собрание сочинений. / С.С.Аверинцев. – София – Логос. Словарь/ под.ред. Н.П. Аверинцевой и К.В.Сигова. Киев: Дух и Литера, – 2006. – с.386

süjetdə simvolun yeri və mövqeyi, yaranma prosesi üç yönümdə - predmetli, təsviri, təbiət təzahürləri və s. olan obrazın olması, obyektdə olan təsvirin semantik məna və çoxmənalılığı, bənzədilənlə bənzəyən arasında ortaq vəhdətin olması ilə reallaşır. Bədii simvol müxtəlif poetik kateqoriyaların iştirakı ilə müəyyənləşir və ideyanın açılmasına təkan verir. Deməli, simvol mətnə daxil edilən, fikrin inkişafına təkan verən poetik kateqoriyaların ümumiləşmiş obraz tipidir.

Fəsildə əldə olunan əsas elmi nəticələr aşağıdakı nəşrlərdə öz əksini tapmışdır[9].

Dissertasiyanın "**Azərbaycan poeziyasında simvolun etno – mədəni, ədəbi qaynaqları"** adlı ikinci fəslində XX əsr Azərbaycan şeirində simvolların təyinatında etno-mədəni və ədəbi mənbələrin rolu mif və folklor, klassik Şərq şeiri və Azərbaycan romantizmi kontekstində araşdırılır. Üç paraqrafdan ibarət olan fəslin **"Simvolun mifoloji, folklor qaynaqları"** adlı birinci paraqrafında qeyd olunur ki, simvol mədəniyyətin ölməyən hüceyrələridir. Bu hüceyrə şüuraltında informativliyi qoruyur, mədəniyyətin genetik yaddaş koduna çevrilir. Hər bir mədəniyyətdə mövcud olan yeni simvolik sistem əsasını etno-psixoloji yaddaşda, şüuraltı qatda yaşayan sistem əsasında formalaşdırır. Mircea Eliade yazırdı: *"...simvollar psixi canlılığını heç vaxt itirmir; görüntüləri dəyişə bilir, lakin funksiyaları dəyişməz olaraq qalır"*[10]. İctimai-sosial məsələlər, müasir dövrün paradiqmaları ənənədən gələn, yaddaşda mövcud olan model, obraz və motivdə simvolik məzmunu transformasiya yolu ilə dəyişə, yeniləyə bilir. Paraqrafda poeziyada mif-simvol əlaqələri, ortaq və fərqli cəhətləri, mifdə simvolun təzahür mərhələləri geniş şərh olunur. XX əsrin əvvəllərindən başlayaraq mif süjetlərinə, mifoloji obraz və elementlərə, etno-mifoloji arxetiplər, əfsanə və əsatirlərə, folklor təfəkküründən gələn simvolların mərhələli şəkildə, metod dəyişimi, milli dövlətçilik ənənələrinin, ideologiyaların yaranması ilə əlaqəli

[9] Qarayeva, G. Bədii obrazda poetik kateqoriyaların funksionallığı // – Bakı: Poetika.izm, – 2019. №1, – s. 24-29; Qarayeva, G. Poetik fikrin təkamülündə bədii obraz və simvol // – Bakı: Poetika.izm, – 2024, №2, – s. 48-55

[10] Eliade, Mircea. İmgeler Simgeler:/Eliade.M. – çev: Mehmet Ali Kılıcbay. – Ankara: Gece yayınları, – 1992. – s.206

olaraq qarışıq və mürəkkəb formada təzahür etdiyi qeyd olunur.

XX əsr Azərbaycan şeirində bu dinamik mərhələni hərtərəfli şəkildə izləmək üçün problem bir neçə istiqamətdə araşdırılır:

1. Etno-mifoloji arxetiplər. Mifoloji təfəkkürdən gələn simvollar. Mifoloji obrazların simvola transformasiyası.
2. Folklor təfəkküründən gələn simvollar.
3. İdeoloji simvollar. Simvolda ideoloji kontekst və yeni ideyalı simvolik obrazlar
4. Sovet mifi, proletar şeirində yeni mifoloji obraz – simvollar

Dissertasiyada universal, kök simvol olaraq dağ, dəyişkənliyi, dinamikliyi ilə müxtəlif tarixi mərhələlərdə yenilənən günəş, ay, ulduz simvolları, folklorda aktiv simvollardan olan durna, ovçu, maral və s. simvolik tutumlu obrazların XX əsr Azərbaycan şeirində həm ənənədə mövcud olan işarəvi xüsusiyyətlərinin olduğu şəkildə, bəzən isə yeni ideyalarla fərqli transformasiyalarla obrazlaşdırılması məqamlarına toxunulur və təhlillər aparılır. Qeyd olunur ki, 1920-1950-ci illərdə sovet ideologiyasının formalaşdırdığı bədii təfəkkür yeni simvolik sistemin yaranmasını şərtləndirdi. Bu obrazların bir qismi milli düşüncədə sabitləşən simvollar olsa da, onların simvolik ideyası dəyişdirildi, yeni təsəvvür və anlayışlarla sovet cəmiyyətinin əsas mərkəzi obrazları kimi konkretləşdi. Bu baxımdan qızıl, bahar, şahin, tərlan, quzğun, div obrazına adekvat yaradılmış obrazlar və eləcə də insanların xoşbəxt gələcəklə bağlı arzularının əsas təkanverici qüvvəsi olan inam hissi, kollektiv şüur və düşüncə yeni anlayışların və ədəbi qəhrəman tipinin əvəzlənməsi ilə diqqət çəkdi.

Sovet dövrü Azərbaycan şeirində mifoloji obraz və motivlərin işlənmə və onlardan yararlanma meyarları fərqli idi. Poetik sistem çox zaman qızıl, şahin, tərlan, bahar, günəş və s. ənənəvi simvolları, türk mifologiyasından, folklordan gələn obraz-simvolları yeni interpretasiyada təqdim edir və obraz öz ənənəvi məzmunundan ayrılır, kənarlaşdırılır. Digər tərəfdən isə, ideoloji təbliğat, qurulan və dərk olunan gerçək cəmiyyətin qəbul edilmiş reallıqları yeni mifləşdirməyə şərait yaradır. Burada oraq, çəkic, Lenin, Qızıl meydan və s. kimi həm ayrı-ayrı predmetlərin və eləcə də, ədəbi qəhrəman və məkan tiplərinin mifoloji obraza çevrilməsi diqqət çəkir.

Həmin mərhələdə ənənəvi obrazlar trayektoriyanı dəyişərək

yenisi ilə əvəzləndi. Aviasiya ilə bağlı yaranan anlayışlar ornitoloji simvolların gerçək mifoloji anlamdan uzaqlaşaraq ideoloji və sosial ritorikanın yeni mif modelində təqdimini şərtləndirdi. Paraqrafda ideoloji əsaslı simvolik obrazlar – qızıl şahin, tərlan, qartal, quzğun, yapalaq və s. ornitoloji obrazlar "aviasiya mətnində" işlək və yeni mifoloji modeldə təqdim olunur, şüuraltı və sosial mədəni kontekstdə təzahürü izlənilir.

Mifoloji-simvolik obraz ikili funksiyalıdır. Bir tərəfdən obraz elə mifoloji kontekstdə simvollaşır, onun semantikası bütövlükdə mifoloji düşüncəyə dayalıdır. Bəzən isə, mifoloji sistem, inanc və mifik dünyagörüşünə əsaslanan imkanların obraza verilməsi onu mifoloji obraza çevirir. S. Vurğunun "Kür çayı" şeirində Kürün mifləşərək "ayağının sayalı olması", "insan qismində verilməsi", "gerçək statusa malik olması" obrazda mifoloji motivi qabardır, digər tərəfdən isə, Kür çayı simvollaşaraq "keçdiyi yerləri xeyir-bərəkətlə zənginləşdirmək" ideyasını ifadə edir. Lakin Kürün simvolik təsviri mifik düşüncənin təzahürü kimi şərtlənsə də, mifoloji mətnə, inanca bağlı mif deyil.

XX əsrin ikinci onilliyindən sonra mif artıq özü bir sosial mexanizmə çevrildi. Bu isə ədəbi qəhrəmanın ideoloji qəhrəmanla əvəzlənməsi, lider obrazının yeni mifoloji qəhrəmana çevrilməsi ilə yeni mif modelini təqdim edirdi. Ənənəvi miflər bütün zamanlarda kollektiv yaddaşın və cəmiyyətin arxaik anlayışlarına dayalıdır, onda mücərrədlik və çoxqatlılıq var, bunlar ümumi anlayışları ifadə edir, dünyanı, insanı, varlığın mənasını dərk və şərh etməyə çalışır. Sosial strukturlu miflər isə, müəyyən bir cəmiyyətin, quruluşun sosial və siyasi strukturlarının gücünü qabardır. Müəyyən mərhələdən sonra tarixə çevrilir. Ənənəvi mifdən fərqli olaraq sosial mexanizmlə yaradılan mif konkretdir və ideoloji yüklüdür.

Sovet dövrü Azərbaycan şeirində Qızıl meydan, Qızıl bayraq, Lenin və s. ümumişlək kollektiv təfəkkürün yeni simvolik vahidləri kimi formalaşmışdı. Proletar şeirin mifik obrazı olan "qızıl əsgər" ənənəvi ədəbi qəhrəmanlara qarşı qoyulmuş simvol modifikasiyasında yeni qəhrəman tipi idi. Qızıl Meydan, qızıl bayraq, qızıl dan, qızıl əsgər, qızıl səhər, qızıl günəş, çəkic, oraq və s. sovet mifologiyasının, proletar şeirinin yeni "mifologem"ləri idi.

1920-1960-cı illər problem üzrə aparılan müşahidə və təhlillərə əsaslanaraq qeyd edə bilərik ki, mifin sosial mexanizmə çevrilməsi ənənəvi mifoloji modellərin yeni struktur imkanlar əldə etməsinə şərait yaratdı. Mifoloji strukturda dekonstruksiyalar, identivlik, transformasiyalar, modifikasiya əsr boyu mif modellərinin yenilənməsi, müəyyən dəyişmələrlə əvəzlənir. Sovet dövrü və onun aktiv komponenti olan proletar ədəbiyyatı mifoloji strukturlu yeni simvolik obrazlar yaratmaqla yanaşı, türk mifoloji təsəvvürlərindən gələn obrazlara birmənalı yanaşmamış, böyük əksəriyyəti dinamik xüsusiyyətlərə malik olsalar da, tam yeni ideoloji kontekstdə obrazlaşdırılmış, türkçülüklə bağlı simvollar ciddi nəzarətə götürülmüşdür. XX əsr Azərbaycan şeirində simvolların aktivləşməsinin yeni mərhələsi 1950-ci illərin sonu, 60-cı illərə təsadüf edir. Həmin mərhələni həm də "milli kökə qayıdış" mərhələsi hesab etmək olar. Əsrin ikinci yarısına doğru sərt ideoloji münasibətlərin zəifləməsi, yumşalma, insan amilinə artan maraq simvolların yenidən doğuluşuna şərait yaratdı.

Fəslin **"XX əsr Azərbaycan şeirində klassik Şərq simvolik modelinin yeni interpretasiyası"** adlanan ikinci paraqrafında klassik Şərq simvolik sisteminin təzahürü klassik və müasir şeir nümunələrinin qarşılıqlı müqayisəsi ilə aparılır.

Milli məfkurənin formalaşması, sosial-ictimai məzmunun aktivləşməsi ilə ideya-məzmun dəyişimi təsəvvüfdən sosial təsəvvüfə, model, obraz, motiv transformasiyasında sufizmdən-neosufizmə keçiddə simvolik modeldə iki əsas aparıcı obrazın transformasiyasında statusun yenilənməsi, ideya dəyişimi tarixi, ideoloji, sosial baxışlarla əlaqəli olaraq dinamik xüsusiyyət kəsb edirdi. Paraqrafda sufizmdən –neosufizmə keçiddə təsəvvüf simvollarının yenilənməsi, aşıq-məşuq transformasiyasında Mehmet Kaplanın sosial təsəvvüf, Tahirə Məmmədin "neosufizm" konsepsiyası elmi baza kimi əsas götürülərək, M.Füzuli, Q.Bürhanəddin, İ.Nəsimi, Ş.İ.Xətai, M.Hadi, H.Cavid, A.Şaiq, A.Səhhət və b. gətirilən yaradıcılıq nümunələri üzərində geniş təhlillər aparılır.

Klassik poeziyanın obrazlar qalereyasında daşlaşmış, qəlibləşmiş yar, məşuq, əğyar obrazları bu mərhələdə tam yeni bir

ideyanın, mətləbin ifadəsinə yönəldilirdi. Burada diqqət cəlb edən məsələlərdən biri də simvolik sistemin yenilənməsində xalq şeirinin obrazlar sistemi ilə klassik simvolika arasında müvaziliyin yaranması və hər iki ənənənin əsasında yaranmış məzmun yeniliyi idi. Bolşevik təhlükəsini hiss edən, azadlığı əlindən çıxmış, müstəqil dövlətlə bağlı istəkləri alt-üst olmuş lirik qəhrəman real təhlükəyə qarşı öz hiss və yaşantılarını açıq şəkildə deyil, bədii simvollarla ifadəyə çalışırdı. C.Cabbarlının "Dün o gözlərdə", "Yaşamaq", A.Şaiqin "Şərq gözəlinə", "Gəlsin", Ə.Cavadın "Sən ağlama", "Madonnaya", "Olsun qoy", "Unudulmuş sevda", M.Müşfiqin "Şair və vətəndaş", H.Sanılının "Məşuqəm", S.Mənsurun "Naz et mənə, ey sevgili yarım, mənə naz et", Umugülsümün "Hicran", "Bir qız üçün", "Qəriblik", Ə.Dainin "Hicran", "Qürbət ellərdə", "Bulunmaz", B.Seyidzadənin "Bir həsbi hal", "Acı xəndə", "Süzgün nur", "Hicran", "Harada", "Mən ağlaram", A.İldırımın "O mənimdir əzəldən", "O gözələ", "Bir səs gəlir uzaqdan", "Qurbanın ola bilsəm", "A dost", "Bakı" və s. şeirlərdə identik yar obrazı yeni simvolik modeldə təqdim olunurdu. Bu şeirlərdəki simvoliklikdə poetik yaddaşın iki xətti – dastançılıq ənənələri, folklor təhkiyəsi və klassik şeirin sufi-təsəvvüfi görüşü aparıcı idi.

Simvollaşdırma milli ədəbiyyatın "immanent qanunları" ilə tənzimlənir və hər yeni mərhələ poeziyanın yaddaşında, şüuraltı qatda mövcud olan obrazlara konkret dövrün prizması və kontekstini tələb edir ki, bu da dissertasiyada bahar, əğyar, sərsəri kimi ənənəvi obrazların yeni simvolik təyinatları ilə əyaniləşir.

Beləliklə, tədqiqatdan məlum olur ki, klassik Şərq şeirinin özünəxas simvolik modeli və simvolik obrazları, Rene Qenonun terminləşdirdiyi "quş dili" olmuşdur. XIX əsrə qədər zəngin ənənələri ilə mövcud olan bu sistem XX əsr romantik poeziyada yenilənərək müxtəlif transformasiya və interpretasiyalarda tam yeni məzmunda mövcud olmuşdur. XX əsrin 20-ci illərindən başlayaraq dini, fəlsəfi, elmi dünyagörüşə əsaslanan bu sistem yeni sosial-ideoloji kontekstdə dəyişərək obrazların mənalandırmaları baxımından fərqlənmişdir.

Fəslin **"Romantik şeirin poetik sistemində simvol**" adlanan üçüncü paraqrafında romantizmdə sufizmdən – neosufizmə, mifologiyadan – neomifologizmə keçid mərhələsi ənənənin

təkrarlanması kimi deyil, simvol transformasiyasında yeni poetik sistemin formalaşması kimi xarakterizə olunur.

Simvolik model dəyişimində divan ədəbiyyatının ifadə sistemi ilə XX əsr Azərbaycan romantik ədəbiyyatının simvolik vahidlərinin birləşməsi yeni model tiplərini təqdim edir.

Qeyd olunur ki, XX əsr Azərbaycan romantik şeirində folklor motivlərindən, mifoloji obrazlardan istifadə yönümləri çeşidli idi.

1. Folklordan, əsatiri, əfsanəvi obrazlardan, mifoloji süjetlərdən, dini rəvayətlərdən istifadə: Simurq quşu, pəri, ay, ulduz, günəş, mələk, Nuh, Adəm, "Qızıl alma" bağı

2. Demonik qüvvəllərdən istifadə: İblis, div, dekonstruksiyalı sosial obrazlar və s.

Fəslin bu bölməsində A.Şaiqin "Dan ulduzu", "Arazdan Turana", "Gəmirik", A.Səhhətin "Yuxu", "Şair və şeir pərisi", H.Cavidin "Gecəydi" və s. şeirlərdə folklor obrazları, mifoloji süjetlərin, demonik qüvvələrin geniş, tutumlu simvolik mənalandırmalarına nəzər yetirilir.

Aparılan araşdırma və təhlillər ümumiləşdirilərək qeyd olunur ki, poetik quruluş baxımından mürəkkəb və çoxcəhətli funksiyaya malik simvolun romantik ədəbiyyatda özünəməxsus, fərqli simvolik sistemi mövcud olmuşdur. Obrazın tarixi təkamül prosesində müxtəlif mərhələlərdən keçərək romantik ədəbiyyatda birgəlik qazanması simvolik sistemin yenilənməsi və təkrar doğuluşu idi. Yararlanma, qaynaq olaraq mifoloji və dini simvollara müraciət Azərbaycan romantizmi ilə dünya romantizmi arasında bağlılığı təmin etsə də, lakin qaynağa əsaslanma hər bir xalqın düşüncə tərzi, psixologiyası, ictimai-sosial şəraitə uyğun olaraq dəyişkən və fərqli idi. Bədii düşüncədə simvolika yalnız "bədiilik amili" deyil. Bu həm də ideala və yeni ideyaya çağırış amili idi. Romantizmdə ənənədə mövcud olana müraciət yaradıcılıq metodunun ümumi, xarakterik xüsusiyyəti olsa da, modelin tətbiqi baxımından fərqlənirdi. Azərbaycan romantizmində *"türk metafizik düşüncəsi və təsəvvüf zehniyyəti"*[11] dünya romantizminin mifoloji və dini yaddaşdan bəhrələnmənin oxşar səciyyəsi deyildi. Milli romantizmdə türk etnik yaddaşı ilə orta çağ

---

[11] Turan, Azər. Cavidnamə: /A.Turan. – Bakı: Elm və təhsil, - 2010. – s. 175

islam zehniyyətinin əsasında bədii düşüncədə mövcud olan sufi-təsəvvüfi simvolikanın identikliyi model dəyişimində, neomifologizm və neosufizmə keçiddə yeni simvolik modelin təqdimi ilə şərtləndi. Avropa ədəbiyyatı romantizmin bətnində simvolizm ədəbi cərəyanını doğursa da, Azərbaycan romantizmində tarixi şərait, yeni ideologiyanın formalaşması, ictimai-siyasi iqlimin sərtləşməsi simvolizmə romantizmin bətnindən kənara çıxmağa imkan yaratmadı. Lakin buna baxmayaraq uzun müddət Azərbaycan şeiri məhz romantik simvolik sistemin identik simvol mexanizmi ilə bədii düşüncəni yeni ideyalarla zənginləşdirə bildi.

Dissertasiya işinin ikinci fəslinə dair müxtəlif elmi jurnallarda aşağıdakı məqalələr dərc olunmuşdur[12].

Dissertasiyanın **"XX əsr Azərbaycan şeirinin 1920-60-cı illər mərhələsində təbiət obraz və simvollarının semantikası, funksionallığı və tipologiyası"** adlanan üçüncü fəsli dörd paraqrafdan ibarətdir. Fəslin ayrı-ayrı bölmələrində bədii simvolların yaranmasında təbiətin rolu, ekomədəniyyətdən – ekocəmiyyətə keçid, zaman-cəmiyyət tandemi, simvolik polisemiya, bədii simvolda intertekstuallıq məsələlərinə toxunulur. Fəslin **"Bədii simvolun**

---

[12] Qarayeva, G. Romantik şeirdə simvol fərdiliyi // – Bakı: Azərbaycan ədəbiyyatşünaslığı, – 2020. № 2, – s. 71-78; Garayeva, G. XX. Yüzyıl Azerbaycan ve türk romantik şiirinde neo-tasavvuf // – İstanbul: Dergi Park. Akra Kültür Sanat ve Edebiyat Dergisi, – 2021. – s 25, c 9, – s. 91-102; Garayeva, G. Sovet mifoloji modelində simvol transformasiyası// – İstanbul: Dergi Park. Akra Kültür Sanat ve Edebiyat Dergisi, – 2023. s 30, c 11, – s. 43-53; Garayeva, G. XX.Yüzyıl Azerbaycan şiirinde folklor sembolleri// – Kıbrıs: Folklor/Edebiyat. DOI: 10.22559/folklor.2278, – 2023. №1, – c. 29, – s. 113, – s. 31-48; Garayeva, G. Criteria for the nationalization of the artistic symbol// – Malatya: Dergi Park.Usbad Uluslararası Sosial Bilimler Akademi Dergisi, s.17, – s.179-193; Qarayeva, G. Azərbaycan ədəbiyyatında dağ simvolu // – Bakı: Filologiya məsələləri, – 2025. № 2, – s.321-326; Qarayeva, G. Simvolda milli müəyyənlik// "Müqayisəli ədəbiyyat və mədəniyyət: Ədəbiyyatın və mədəniyyətin başlanğıc meyarları. (Konfrans materialları), – Bakı: – 27-28 noyabr 2015. – s. 11; Qarayeva, G. Azərbaycan və türk şeirində günəş, ay, ulduz simvolları // Azərbaycan-Türkiyə münasibətləri II Beynəlxalq Elmi Konfransının materialları, – Bakı: – 12-14 oktyabr 2017, – Kastamonu: – 2018, – s.263-270; Garayeva, G. XX.Yüzyıl Azerbaycan ve Türk Şiirinde Tasavvuf Simgesinin İdentifikasyonu // XVIII.Türk Tarih Kongresi, – Ankara: – 1-5 Ekim 2018. – XII c, (Kongreye sunulan bildiriler), – Türk dili ve Edebiyatı Tarihi: 2022. – s. 201-215

**yaranmasında təbiət elementlərinin rolu"** adlanan birinci paraqrafında Ə.Cavad, A.İldırım, S.Vurğun, N.Xəzri, Q.Qasımzadə, X.Rza, M.Araz, M.Yaqub, H.Kürdoğlu, M.Aslan və b. gətirilən nümunələr əsasında ənənəvi təbiət obrazlarının çeşidli simvolik çalarlarına nəzər yetirilir, dağ obrazının müxtəlif, zəngin mənalandırmalarına diqqət yönəldilir və qeyd olunur ki, çoxqatlı semantik mənaya malik dağ obrazı etnos, mif, folklor təfəkküründən irəli gələn impulsları yaşatmaqla yanaşı, əxlaqi-estetik kateqoriya kimi böyüklük, əzəmət, ucalıq rəmzi kimi simvollaşdırılır. Obrazın daşıdığı simvolik məna itmir, dəyişilir və yenilənir. Simvol işlək mexanizm kimi hər dönəmdə öz ilkin kökündən ayrılmayaraq yeni məna ilə yüklənir. Əgər simvolik məna obrazda yenilənmirsə, eyni kontekstdə təkrarlanırsa, obrazda simvolik məzmun itir, motivləşir. XX əsr Azərbaycan şeirində dağ obrazı özünün zəngin simvolik funksiya çalarlığında motivləşən simvollardandır.

Dağ obrazı ilə yanaşı, "ağac" ın ənənəvi semantik mənasını (həyat ağaçı, insan nəsli, soykök və s.) saxlamaqla müxtəlf növlərinin – çinar, palıd, söyüd, qovaq və s. simvollaşması, "ay" obrazının "ay işığı" ilə əvəzlənməsində simvolun daşıdığı semantik məna çalarlarının müxtəlifliyi obrazın ənənəvi struktur-semantik modelindən ayrılaraq fərdi üslubi səciyyə daşıması ilə bağlı idi.

Fəslin **"Bədii simvolda zaman – cəmiyyət tandemi"** adlı ikinci paraqrafında zaman faktoru simvol nəzəriyyəsində xüsusi önəm kəsb etməklə, həm də simvolun fərqləndirici xüsusiyyəti kimi şərtlənir. Qeyd olunur ki, simvoldakı dəyişkənliyi, yaddaşda mövcud olan simvolların ayrı-ayrı simvolik sistem daxilində fərqlənməsi, onların yenidən yaradılması və simvola ölməzlik hüququ verən zaman faktorudur. Zaman və ictimai mühit konteksti ifadə məqamına görə simvol tiplərində dəyişilə bilir. Zaman, ideologiya dəyişdikdə simvollar da yenilənir, dəyişilir, yeni məna çalarları yaranır. Fikrin daha aydın ifadəsi yönümündə bir-birindən fərqli dövrləri qarşılaşdıraraq zaman və cəmiyyət dəyişimi fonunda simvolun semantikasında yaranan fərqli təzahürlər M.Müşfiq, M.İsmayıl, M.Yaqub yaradıcılığında eyni obraza, obyektə - tənha ağaca simvolik baxışın fərqli təzahüründə isbatlanır.

Simvolun anlayış baxımından səciyyələndirilməsində bir çox

müəlliflərin də qeyd etdiyi kimi, əsas məsələlərdən biri onun mürəkkəb estetik kateqoriya olaraq çoxmənalılığı, dəyişkənliyi ilə əlaqədardır. Lakin simvol öz-özünə dəyişə və ya yeni məna xüsusiyyəti kəsb edə bilməz. Simvolun obrazlılıq funksiyası obraz funksiyasını saxlamaqla simvolik məzmun o zaman qazanır ki, bədii mətn üç müstəvini: bədii düşüncə, ideologiya, zaman faktorunu əhatə etsin. Zaman, ictimai-sosial mühitə müdaxilənin konturları dəyişilib yeniləndikcə simvol xüsusiyyəti kəsb edən obrazlaşmış obyekt, predmet, hadisə və s. yeni kontekstə keçir, simvol yenilənir.

Simvol bədii mexanizmdir. Onun hər zaman təkrarlanmaq, yenilənmək və dövriyyəyə tam yeni kontekstdə gəlmək imkanı var. Burada diqqət çəkən məqam isə bədii simvolun əldə etdiyi bu xüsusiyyətlərin ideologiya, zaman və cəmiyyət psixologiyasına uyğun olaraq yenilənməsidir. Zaman, ideologiya dəyişməsə, simvollar da donuq, dəyişməz olaraq qalır. Obrazın interpretasiyası, simvol transformasiyalarını formalaşdıran əsas cəhət zaman faktoru və zaman daxilində onu dərk və dəyərləndirmə mexanizmidir.

Üçüncü fəslin **“Bədii simvolda ekomədəniyyətdən ekocəmiyyətə inteqrasiya”** adlanan üçüncü paraqrafında yeni insan-təbiət əlaqələri interdisiplinar yanaşma metodunun ekopoetika meyarlarına tətbiq olunmaqla əsaslandırılır. İnsan-təbiət bağlılığı və harmoniyaya əsaslanan ekomədəniyyət, yeni mərhələdə tərəflər arasında bağların qırılması, disharmoniyanın ekocəmiyyətə keçiddə görünən simvolik dəyişmələri və ekoloji düşüncənin formalaşmasında simvolik mənalandırmalar şərh olunur. Ekopoetikanın əsas qollarından olan insan-təbiət əlaqələrinə, bədii simvol və ekopoetika anlayışlarını birləşdirən məqamlara S.Vurğun, H.Arif, N.Xəzri, F.Qoca, Q.Qasımzadə, M.Araz, M.Yaqub, H.Kürdoğlu, M.İsmayıl və b. yaradıcılıq nümunələri əsasında aydınlıq gətirilir. Qeyd olunur ki, XX əsr Azərbaycan şeirində yaranan bu yeni tendensiya ənənəvi, qəlibləşmiş obrazların daşıdığı simvolik məzmunun fəlsəfi-psixoloji yönümdən ekopoetik dil vasitəsilə yenidən təkrarlanmasına və insan-təbiət arasında münasibətlərdə ekoloji şüurun fəlsəfi mahiyyətinin açılmasına istiqamətlənir.

Mədəniyyətin qavranılması və dərk olunmasında ümummədəniyyət kontekstində fərdiləşən simvolların ənənəvi,

mədəni layları ekomədəniyyətdən çıxaraq yeni insan-təbiət münasibətlərinin qurulmasında yaranan ekocəmiyyət modelində yeni xüsusiyyətlər əldə etdi. Tədqiqatda mövcud insan-təbiət əlaqələrinin ekomədəniyyət və ekocəmiyyət modelində dəyişimləri izlənilir.

Fəslin "**Simvolik polisemiya və sovet senzurası" adlanan** dördüncü paraqrafında 1920-ci il aprel çevrilişindən sonra Qlavlitin əsas vasitələrindən olan "polisemiya"nın sovet tənqidinin ideoloji metodlarından biri kimi milli məfkurəyə, türk mifologiyasına, yaddaşa, xalqın tarixi keçmişinə dayalı olan sənət adamlarının ifadə etdikləri obraz – simvollara, yaxın tarixi keçmiş, hürriyyət məfkurəli, istiqlal tarixini yaşayan sənət adamlarının dövlətçiliyin simvolik sistemini formalaşdıran obraz – simvollardan istifadə, təbiət təsvirləri və obyektlərinin siyasi yönümdə obrazlaşdırılmasında mövcud simvollardan istifadədə mübarizə yönümləri araşdırılır. Cümhuriyyətlə, türkün etno-psixoloji yaddaşı ilə əlaqəli olan ay, ulduz, mavi rəng, durna, Səməndər quşu, canavar və s. söz-simvollarla yanaşı, polisemiyanın tətbiqi yeni quruluşun simvolik vahidlərinə çevrilən traktor, pambıq və s. obrazlarda da ikili məna axtarışları və mənalandırmalara yönəldilirdi. Qeyd olunur ki, milli hökumətin süqutundan sonra, bir çox sahələrdə olduğu kimi, bədii düşüncənin də nəzarətə götürülməsi, 1920-ci illərin sonu 30-cu illərin əvvəllərində simvolların sıxışdırılıb yeni ideoloji obraz və simvollarla əvəzlənməsi, simvolik obrazların "işğalı" ilə nəticələnmişdir.

Fəslin **"Bədii simvolda intertekstuallıq"** adlanan beşinci paraqrafında qeyd olunur ki, XX əsrin 50-ci illərindən sonrakı mərhələdə poeziyada yaddaşa, folklora, ənənəyə qayıdış, yeni üslub, məzmun çalarlarının formalaşması, keçmişin dərk olunması, yenidən oxunması müstəvisində fərdi, kollektiv, ümumbəşəri yaddaş birgəliyində şeirin poetik strukturunda simvolik məzmunun yenilənməsi yeni estafetin başlanğıcı idi.

Poeziya yaddaşın funksional obrazları ilə zəngindir. Şair həmin obraz və obrazlaşmış məkanları fərdi yaddaşından keçirərək, milli-genetik kodlaşmanı, xalqın tarixi-mənəvi bağlarını həmin yaddaş obrazlarında əks etdirir. Həmin obraz işləndikcə simvolikləşir, daha geniş fəlsəfi-estetik funksiya daşıyıcısına çevrilir. Yaddaş fenomen olaraq fərdin şüurunda özünə yer almış elə bir canlı prosesdir ki, şair

keçmiş haqqında düşüncələrini toplayaraq məkanın, mühitin yaddaşa bağlılıq ölçüsündən asılı olaraq onu mətnlər vasitəsilə yenidən yarada və ötürməyə qadirdir.

Yaddaşsız poeziya yoxdur. Hər bir yaradıcılıq bu və ya digər dərəcədə yaddaşa çağırışdır. Hər bir fərdin düşüncəsi zamanından asılı olmayaraq yaddaşda mövcud olan, bitmiş, lakin şüurda diri qalan təəssüratların yenidən xatırlanmasına istiqamətlənir. Fransız tarixçisi P.Nora tarixi keçmişi qoruyan, saxlayan, simvollaşdıran hadisələri "yaddaş yeri"[13] termini ilə təqdim etmişdir. İntertekstuallıq məhz "yaddaş yeri"nin qorunması, onun bədii təfəkkürə transformasiyası və yenidən yaradılması aktıdır. Bu prosesin özü də bədii yaradıcılıqda müxtəlif etaplardan keçir. Məsələn, şair ilkin olaraq bu prosesi şüurlu şəkildə deyil, qeyri-şüuri formada gerçəkləşdirir. Təbii ki, bu mürəkkəb proses sadədən mürəkkəbə doğru, şaquli və üfüqi müstəvidə inkişaf edir.

Dissertasiyada poeziyada yaddaş xətti milli-genoloji aspektdən şərti olaraq – 1) Fərdi- subyektiv yaddaş; 2) Kollektiv yaddaş; 3) Folklor yaddaşı; 4) Klassik yaddaş; 5)Təbiət yaddaşı üzrə bir neçə istiqamətə ayrılaraq təhlillər aparılır.

Paraqrafda əsasən R.Rza, M.Araz yaradıcılığı əsasında aparılan təhlillərdən çıxış edərək qeyd olunur ki, XX əsrin 60-cı illərindən başlayaraq keçmişə, yaddaşa, folklora qayıdış və ədəbiyyatın milli meyarlar müstəvisində yenidən dəyərləndirilməsi poeziyada milli geneoloji baxımdan bədii simvolların işləklik funksiyasını aktivləşdirmiş, obraz-simvollar mədəniyyətin alt qatından bədii düşüncəyə transfer olaraq şairlərin fərdi-intuitiv yaddaşından zəmin götürərək milli mədəniyyətin fenomenal yaddaşı ilə sintezləşmişdir.

Dissertasiya işinin üçüncü fəslinə dair müxtəlif elmi jurnallarda aşağıdakı məqalələr dərc olunmuşdur[14].

---

[13] Нора, П. Мест памяти:/ П.Нора. – пер. с в фр. Дина Хапаева. – Санк- Петербург: Санк-Петербургского университета, – 1999. – с.17

[14] Qarayeva, G. Azərbaycan Xalq Cümhuriyyəti – simvolik polisemiya və sovet senzurası // – Bakı: Bakı Universitetinin Xəbərləri, – 2020. № 4, – s.51-58; Qarayeva, G. Məmməd Araz poeziyasında yaddaş intertekstuallığı // – Bakı: Poetika.izm., 2023. № 2, – s. 25-35; Qarayeva, G. Bədii simvolda ekomədəniyyətdən ekocəmiyyətə inteqrasiya// - Bakı: Bakı Qızlar Universitetinin "Elmi əsərlər"i, 2024. № 4, s. 185-189;

Dissertasiyanın **"1920-60-cı illər Azərbaycan şeirində bədii simvolun poetikası"** adlanan dördüncü fəsli üç paraqrafdan ibarətdir. Fəslin "**Süjetin formalaşmasında simvolun rolu"** adlı birinci paraqrafında süjet-simvol əlaqələri, süjetin əsas komponentlərindən biri kimi simvolun bədii mətndə funksiyası araşdırılır. Qeyd olunur ki, bədii mətndə simvol ilkin olaraq obrazdır, mətn boyu obrazın dinamik inkişafı, öz ətrafında zəruri dil komponentlərinin bir araya gətirilərək obyekt və subyektin qarşılıqlı təsir mexanizminə uyğun inkişaf etdirilməsi, obrazın daşıdığı mənanı süjet boyu qorumaqla qazandığı yeni keyfiyyət əsasında yaranan ideyanın gerçəkləşməsi prosesidir. Lirik mətndə epik və dramatik əsərlərdən fərqli olaraq uzun hekayə və hadisələrin xranolojı ardıcıllığı yoxdur, düzdür, bu lirik mətnin süjet imkanlarını azaltsa da, onu süjetlilikdən məhrum etmir. M.Baxtin, Y.Lotman, M.Qasparov, R.Yakobson, V.Şklovski tədqiqatlarında süjetin labüdliyini qeyd edirlər və lirikada ənənəvi süjet olmasa da, *"şairin və ya qəhrəmanın daxili münaqişələrinin və hisslərinin inkişafı ilə təmsil oluna biləcəyini"* bildirir və süjetin *"emosiyalar, ruhun özü*

---

Qarayeva, G. 1920-60-cı illər Azərbaycan şeirində təbiət obyekt və predmetlərinin simvolik funksiyası // – Bakı: Azərbaycan ədəbiyyatşünaslığı, – 2025. № 1, s. 81- 89; Qarayeva, G. Bədii simvolda lirik "mən", zaman və cəmiyyət// – Bakı: Filologiya məsələləri, – 2025. № 1, – s.440- 444; Garayeva, G. Symbolism of Dzhumhuriyyuet and the Transformation of Symbols in the Azerbaijani Poetry of 1920-1930-s// XII İnternational Symposium Contemporary İssues of Literary Criticism The İdea of State Sovereignty and XX Centure Literature. TSU Shota Rustaveli İnstitute of Georgian Literature, – Tblisi, – 2018. – c. 98; Qarayeva, G. Rəsul Rza şeirində bədii simvol // Klassik Azərbaycan Ədəbiyyatı və İncəsənətinin Milli Özünütəsdiqdə və Mərkəzi Asiyadakı Mədəni Tərəqqidə Yeri. Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinin yaradılmasının 80-ci ildönümünə həsr olunmuş Beynəlxalq elmi konfransın materialları, – Bakı: – 23-25 dekabr 2020. – s. 183-184; Qarayeva, G. Məmməd Araz poeziyasında yaddaş// Heydər Əliyev 100. Azərbaycanşünaslığın aktual məsələləri. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş XIV Beynəlxalq Elmi Konfransın Materialları, – Bakı: – (2 cilddə)/ – c.2. – Bakı: 4-5 may 2022. – s. 122-124; Garayeva, G. The Tandem of Time and Society in Artistik Symbolism// XVII İnternational Symposium. Contemporary İssues Of Literary Criticism. Literatures of Small Countries and Challenges of the Modern Global Word. TSU Shota Rustaveli İnstitute of Georgian Literature,– Kutaisi: – 25- 27 september 2024. – p. 664-670

*ilə dialoqla və daxili münaqişələrdə özünü göstərdiyin"*[15] bildirirlər.

Süjetin simvolik funksiyası, bir tərəfdən, fərdin hissi yaşantılarının, ictimai-siyasi baxışlarının şərtlənməsi, ən əsası isə müəllif ideyasının üzə çıxması üçün əsas meyardır. Bədii mətndə süjet-simvol əlaqələrinin qurulması və süjet komponentləri arasında dinamik inkişafı şərtləndirən əsas vasitə təbiət obyektləri, hadisə və təzahürləridir. M.Müşfiqin "Yalnız ağac" şeirində ilk baxışda süjet sadə və anlaşılan bir obyektin təsviri üzərində qurulub.

*Olduqca qayğılı, olduqca qəmli,*
*Sadə mənzərəli, sadə görkəmli*
*Yalnız ağac baxır bir dağ başından...*
*Düşünür təklikdə sanki bir qərib.*
*Sarmış çevrəsini inadlı bir çən,*
*Danışır haqqında hər gəlib keçən.*
*Sanki fəlakətlərin fırtınasından*
*Bir yavru ayrılmış öz anasından*[16].

Lakin kontaminasiya süjetin daxilində yeni gedişatların yaranması, ağac-insan və ya lirik "mən", ağac-cəmiyyət, ağac-zaman birgəliyinin vəhdətində yeni simvolik süjetin yaranmasını meydana çıxarır. Obraz şairin duyğu və düşüncəsi ilə həmahənglik yaradan adi təbiət obyektini yeni bir məzmunda formalaşdırır. Şeirdə süjet simvolun üçlü formulu əsasında qurulub və bu formullarda mətnin içində yeni mətnin yaranması, fikrin istiqamətinin sürəkli şəkildə əvəzlənməsi əsas ideyanın yaranmasına gətirib çıxarır. Təbiət obyekti, simvollaşan əşya və nəhayət, süjetin formalaşma və açılmasında ideya qaynağına çevrilən obyekt şairin məram və məqsədinin reallaşmasına tabe etdirilir. Şairin təsvirə gətirdiyi sadə mənzərəli, sadə görkəmli, dağ başından baxan "olduqca qayğılı, olduqca qəmli" tənha ağac digər bir yanda quşların nəğməsi, suların səsi ilə əhatələnmiş yaşıl ormana qarşı qoyulur. İki bir-birinə zidd görüntü şairdə fikri-hissi qavrayışla məntiqi assosiasiya doğurur. Fikrin sərhədləri genişlənir. Süjetə yeni

[15] Бахтин, М. М. Проблемы поэтики Достоевского:/ М. Бахтин. – Москва: Художественная литература, – 1972. – с.356
[16] Mikayıl, M. Seçilmiş əsərləri:/ M.Mikayıl. – Bakı: Şərq-Qərb, – 2004. – s.163

komponentlərin cəm olması fikri-hissi istiqaməti dərinləşdirir, ideyanı sadə məzmundan, görüntüdən uzaqlaşdıraraq daha məzmunlu, düşündürücü və gözlənilməz istiqamətlərə yönəldir.

*Bir tufan qopacaq, saralacaqsan,*
*Bir şimşək vuracaq qaralacaqsan.*
*Başında oynayıb qəm buludları,*
*Sökəcək bağrını ölüm qurdları.*
*Mən də sənin kimi yalnız ağacdım,*
*Təklikdən usanıb, axırda qaçdım.*
*Qəlbimlə, ruhumla qoşuldum elə,*
*Düşüncəm sakitdir o gündən belə.*
*Bax indi mən hara, yalnızlıq hara?*
*Azad fikirlərə, azad quşlara*
*Qəlbimin hər gözü bir aşiyandır,*
*Bədbəxt bu dünyada tək yaşayandır*[17].

Simvollaşma, gerçəkliyi əsl gerçək fondan mücərrəd və mücərrəd olduğu qədər də anlaşılan məfhuma istiqamətləndirmək bədii mətndə obraz-simvol əlaqələrinin yaradılması, görüntüyə gətirilən reallığın fonunda sərt reallığa keçid funksiyasını icra edir.

Qeyd olunur ki, süjetin komponentləri olduğu kimi, simvolun da süjet daxilində öz komponentləri mövcuddur. Simvol obraz tipində süjetin inkişafını istiqamətləndirən, dəyişən və formalaşdıran əsas aparıcı komponentlərdən biridir. Deməli, bədii mətndə simvol obrazdır. Süjetin inkişafında "məcazlar ailəsi"nin bir araya gəlməsi, şaxələnmiş mətnin dinamik inkişafında konkret ideyanın ümumiləşməsi yönümündə obraz simvola çevrilir. Bədii süjetdə simvolun yeri və mövqeyi, yaranma prosesi üç yönümdə - predmetli, təsviri, təbiət təzahürləri və s. olan obrazın olması, obyektdə olan təsvirin semantik məna və çoxmənalılığı, bənzədilənlə bənzəyən arasında ortaq vəhdətin olması. Süjetin formalaşmasında obraz müxtəlif poetik kateqoriyaların iştirakı ilə müəyyənləşir və ideyanın açılmasına təkan verir.

---

[17] Mikayıl, M. Seçilmiş əsərləri:/ Bakı: Şərq-Qərb, – 2004. – s.163-164

Fəslin “**Simvol-metafora, alleqoriya, bədii detal interplayı”** adlanan ikinci paraqrafında simvol nəzəriyyəsi ilə bağlı aparılan tədqiqatlarda işarə, metafora, simvol, alleqoriya anlayışları arasında ortaq məqamlarla yanaşı, bu poetik kateqoriyalar arasında mövcud sərhədlərin bəzən qarışıq salındığını nəzərə alaraq onlar arasında oxşar və fərqli məqamlara nəzər yetirilir. Qeyd olunur ki, metaforik obraz aid olduğu konkret söz və əşyanın təyinedicisidir. Burada istiqamət müəyyən obyektin üzərinə yönəldilir. Simvolda fikir birbaşa görüntüyə gətirilən obyektlə deyil, onun hüdudlarından kənara çıxaraq arxada gizlənən yeni ideya və mənaların şərh olunması ilə yaranır.

Simvol ilə metafora arasında oxşarlıq onların hər ikisinin daşıdığı funksiyanın bu və ya digər dərəcədə bir-birinə keçməsidir. Simvol metaforikdir, onun doğulması üçün lazım olan şərait, mühitin yaranması metafora vasitəsilə reallaşır, eyni zamanda hər bir metafora da bu və ya digər dərəcədə simvolikdir. Yəni hər birinin yaranışında əsas yardımçı funksiya kimi bir-birindən yararlanma olsa da, fərqlidirlər. Simvolun yaranması mürəkkəb prosesdir, onun simvolik sistemdə uzun müddət bədii təfəkkür üçün xüsusiləşən, sabitləşən semantik məna tutumu var və bu sabitləşmiş məna tutumuna bütün dövrlərdə ehtiyac olur.

Alleqoriya ilə simvol arasında oxşar, ortaq məxrəc olsa da, onları bir-birindən fərqləndirən cəhətlər də az deyildir. Alleqoriya müəyyən məqama və əlamətə qədər olduğu halda, simvol təkrarlanan və yenidən doğulandır. Alleqoriya qəbul edilmiş obrazda xüsusiləşmiş, təyin edilmiş müəyyən bir əlaməti önə çıxarır və onun əsasında mərkəzləşir, simvol isə obrazın bütün xarakter xüsusiyyətlərini açır.

Simvol-metafora münasibətlərindəki yaxın və qırılmaz əlaqələr simvol-alleqoriya münasibətlərində də mövcuddur. Simvolda da, alleqoriyada da didaktika var; simvolda didaktika mətnin məntiqi ideyasından doğur inkişaf etdirilmir, alleqoriyada isə, mətnin ideyası didaktikaya aparır. Simvol daim öz semantik məzmununu saxlamaqla təkrarlanmaya və yenilənməyə meyillidir və bu zərurətdir, alleqoriya isə sabitliyə, konkretliliyə malikdir. Simvolda təsvir və məna bağlılığı xüsusi əhəmiyyət kəsb edir və təsvirə gətirilən obraz mütləq şəkildə funksionaldır, diqqət müəyyən əşya və yaxud predmetin, canlı və ya cansız məfhumun üzərində hərəkətlilik qazansa da, digər ideyanı

formalaşdırır. Məna konkret təsvirdə görünənin üzərindən uzaqlaşır. Təsvir və məna bağlılığı alleqoriya üçün də keçərlidir. Lakin bu bağlılıq zahiri xarakter daşıyır. Simvoldan fərqli olaraq alleqoriyada dəqiqlik var. Alleqoriya bütün zamanlar üçün konkret məzmunludur və sabitdir. Simvolda zaman, ideoloji kanonlar simvollar sistemini, bədii mətnin hermenevtikasını dəyişməyə və yeniləməyə istiqamətlənir.

Fəslin bu paraqrafında simvol-bədii detal əlaqələrinə da aydınlıq gətirilir. Bədii detalın müxtəlif tiplərindən biri olan simvolik detal və onun portret yaradan simvolik detallar, lirik qəhrəmanın psixoloji vəziyyətinin təyinatını obrazlaşdıran simvolik detallar, hadisə və situasiyaya əyanilik görümü verən simvolik detallar kimi formaları üzərində dayanılır və geniş təhlillər aparılır.

Qeyd olunur ki, bədii detalı simvolla yaxınlaşdıran xüsususiyyət onun simvollaşdıqdan sonra qazandığı xüsusiyyətdir. Detal simvollaşdıqda öz gerçək mənasından uzaqlaşır, müəllifə ideyanı və məzmunu açmaq üçün oxucuya real imkanlar yaratmış olur.

Dördüncü fəslin “**XX əsr Azərbaycan şeirində rəng simvollarının poetik funksionallığı**” adlanan sonuncu paraqrafında rənglərin şifahi söz sənətində, nağıl, əfsanə, dastanlarımızda, “Kitabi-Dədə Qorqud” dastanları, yazılı ədəbiyyat, klassik şeir, aşıq yaradıcılığı, müasir şeir nümunələrində funksiyası, təsiri, mənalandırma xüsusiyyətləri poetik düşüncənin müxtəlif inkişaf mərhələlərində izlənilir. Əgər milli poeziyamızda rənglərin ideya-məzmun xüsusiyyətlərinə, hər bir rəngin təsir gücünə diqqət yetirsək görərik ki, funksiya baxımından rəng qavramındakı məzmun çalarları demək olar ki, XX əsr Azərbaycan şeirində olduğu kimi qalır, rəngin məzmun və forması, daşıdığı funksiyası deyil, ideyası dəyişir. Paraqrafda XX əsrin əvvəllərində M.Hadi, A.Şaiq, H.Cavid, C.Cabbarlı, Ə.Cavad, M.Müşfiq, H.Sanılının və b. poetik yaradıcılığında daha çox təsadüf olunan qırmızı (al, qızıl), qara, yaşıl, sarı, ağ, göy rənglərin simvolik çalarlarına diqqət yetirilir. Müasir şeirimizdə rəng simvolikası rənglərdə milli-ənənəvi vizuallıq, fərdi vizuallıq, ictimai mühit, zaman vizuallığı yönümündən əsasən üç aspektdə dəyərləndirilir.

Milli şeir nümunələri əsasında aparılan təhlillər zamanı məlum olur ki, XX əsrin əvvəlləri Azərbaycan şeirində əsasən qırmızı (al, qızıl), yaşıl, sarı, qara rəng simvollarından daha geniş istifadə

olunmuşdur. Bu rənglər eyni zamanda yaşanılmış tarixin, xalqın keçmişinin, ictimai-əxlaqi görüşlərinin, dövrün psixologiyasının rəng simvollarında canlandırılan obrazıdır. 1960-cı illərdə Rəsul Rzanın "Rənglər" şeirlər silsiləsi yeni müasir təfəkkürün dövrə fəlsəfi-psixoloji baxışın, zamana modern düşüncənin, assosiativliyin yeni formasıdır. Ənənəvilikdə qeyri-ənənəvilik, fərdi vizuallıqda daxili-psixoloji təcrübəyə əsaslanan ictimai vizuallaşdırma müxtəlif rənglərin məna çalarlığında dövrün, zamanın mahiyyətini açmaq yeni təfəkkür modeli kimi meydana çıxır.

Tədqiqat işinin dördüncü fəslinə dair müxtəlif elmi jurnallarda aşağıdakı məqalələr dərc olunmuşdur[18].

Dissertasiya işinin **"Nəticə"** hissəsində tədqiqat boyu aparılan araşdırmalardan əldə edilən elmi-nəzəri qənaətlər aşağıdakı tezislərlə ümumiləşdirilmişdir.

- Simvolun anlayış və termin olaraq araşdırılması sahəsində tədqiqatlara gec başlanılsa da, onun kökləri ibtidai insanın ətraf aləmi qavrama, duyma, vizuallaşdırma, mənimsəmə yaşı qədər qədimdir. Yaradılışın ilkin mərhələsində mif, arxetip, mistik təfəkkür sisteminə daxil edilən simvollar mədəniyyət faktoruna çevrilərək universallaşmış, zaman keçdikcə milli-tarixi konturları yeni təlim, nəzəriyyə və məktəblərin formalaşması, simvolik sistemlərin yaranması, transformasiyası ilə işlək mexanizmə çevrilmişdir.

Mürəkkəb və ziddiyyətli dövr olan XX əsr Azərbaycan şeirinin 1920-60-cı illər mərhələsi üzrə problemin hərtərəfli şəkildə araşdırılması, mübahisə yaradacaq məqamlara aydınlıq gətirmək məqsədilə simvol nəzəriyyəsi ilə bağlı konsepsiyalar sistemləşdirilmiş, milli şeirimizin mövcud ənənəvi meyarları, simvolik sistemləri

---

[18] Qarayeva, G. 1920-1930-cu illər Azərbaycan şeirində rəng simvolikası// – Bakı: Filologiya və sənətşünaslıq, – 2019. № 1, – s. 77-82; Qarayeva, G. Bədii yaradıcılıqda simvol-metafora əlaqələri// – Bakı: Azərbaycan ədəbiyyatşünaslığı, – 2024. № 1, – s. 100-107; Garayeva, G. The Role of the Symbol in the Formation of Plot// – Baku: Khazar Journal of Humanities and Social Sciences, – 2024. № 2, – 127-143; Garayeva, G. The functionality of symbol and artistic minutiae in Azerbaijan poetry of the 1920-1960s// – Poland, Warszawa: Colloquium-journal, - 2025. № 40. – s. 61-65; Караева, Г. Символика красок в модернизма Р.Рзы// – Tbilisi: – Contemporary İssues of Literary Criticism, – Modernism in Literature Environment, – Thems, Names, 2016. – c. 485-494

əsasında problem konseptual şəkildə araşdırılmışdır. Tədqiqat işində simvol-işarə əlaqələrinə aydınlıq gətirilmiş, onlar arasında oxşar və fərqli məqamlara diqqət yetirilmiş, XVIII əsrə qədər işarə kimi götürülən simvolun anlayış, termin, poetik kateqoriya kimi elmin müxtəlif sahələrində dəyərləndirilməsi, ciddi və geniş şəkildə araşdırılma obyekti olması müəyyənləşdirilmişdir. Dissertasiyada F.V.Hegel, A.F.Losev, Y.Lotman, S.S.Averentsev və b. alimlərin mülahizələrinə istinad edərək simvolun nəzəri aspektləri şərh olunmuşdur. Tədqiqatın qənaətlərinə görə, simvol sabit, statik deyil, dəyişkəndir, təkrarlanan və öz məna qatını qorumaqla yenidən doğulandır. Lakin simvoldakı çoxmənalılıq semantik məzmunu dəyişmir, onda dəyişilən ideyadır, ideya dəyişəndə simvol yenilənir, öz semantik mənasını, kök və məna layını saxlamaqla dövriyəyyə qayıdır. Bu simvolun özünə yaxın poetik kateqoriyalardan əsas fərqli cəhəti kimi göstərilir. İdeyanın müəyyən zaman və dövrə uyğun olaraq dəyişilməsi obrazın simvolik məzmununu da dəyişir. Onun başqa bir fərqləndirici xüsusiyyəti ideya daşıyıcısı olmasıdır.

- Simvol bədii obrazlar sistemində ideya daşıyıcısı kimi poetik fikrin təkamülündə önəmli rol oynayır. Obraz-simvol əlaqələrindən danışılarkən A.F.Losev, S.S.Averentsev, L.Timofeev, P.D.Miniçkin, A.V.Karpenkonun və b. nəzəri fikirlərinə əsaslanaraq obraz kimi simvolun bədii süjet daxilində funksiyası təsnif olunur.

- Dissertasiyada qeyd olunur ki, obraz ifadə edən, simvol isə bədii obrazdan yaranan ideyalı obrazdır. Simvola qədər obraz müəyyən obyekt üzərində fokuslanır, simvola keçiddə isə təsvir əhəmiyyətini itirir, bütün gedişatlar mənanın və mənadan boy verən ideyanın üzərinə istiqamətlənir. Həm obraz, həm də simvol obyektlə, gerçəkliklə sıx əlaqəlidir. Simvolun ilkin başlanğıc etapı obrazlılıqdır, amma obraz simvola çevrilə də, çevrilməyə də bilər. Obrazın simvollaşmasında assosiativlik, məntiqi assosiasiya, metaforiklik, obrazda ümumiləşdirmə və ideya mütləqdir.

- XX əsr Azərbaycan şeirində simvolun mahiyyətini, funksiyasını, poetik səciyyəsini əsaslandırarkən onun bağlı olduğu etno-mədəni, ədəbi qaynaqları, ayrı-ayrı simvolik sistemləri, mədəni-kulturoloji laylarda mövcud olan, yenilənən, yeni məzmun qazanan xüsusiyyətlərini nəzərə almamaq mümkün deyil. Dissertasiyada XX əsr

Azərbaycan şeirində mif süjetlərinə, mifoloji obrazlar, əfsanə və rəvayətlər, folklor təfəkküründən gələn obrazlara artan marağı nəzərə alaraq simvolun mifoloji, folklor qaynaqlarına müraciət olunur, təhlillər aparılır, mif-simvol əlaqələrindən danışılır, folklordan gələn mifopoetik obrazların, klassik şeirin strukturunda modelləşən mifoloji süjetlərin simvolik obrazlılıq xüsusiyyətlərinin ideoloji yönümdən yeni simvolik məzmun qazanması qeyd olunur. XX əsr Azərbaycan şeirində bu mərhələ bir neçə istiqamətdə araşdırılmışdır.

- Etno-mifoloji arxetiplər. Mifoloji təfəkkürdən gələn simvollar. Mifoloji obrazların simvola transformasiyası.
- Folklor təfəkküründən gələn simvollar.
- İdeoloji simvollar. Simvolda ideoloji kontekst və yeni ideyalı simvolik obrazlar.
- Sovet mifi, proletar şeirində yeni mifoloji obraz – simvollar.
- XX əsrin 20-ci illərindən sonra mif artıq sosial mexanizmə çevrilir. Ədəbi qəhrəmanın ideoloji qəhrəmanla, lider obrazının yeni mifoloji qəhrəmanla əvəzlənməsi yeni simvolik modeli formalaşdırdı. Aparılan araşdırma zamanı sovet mifi, mifoloji dünyagörüşün iki yönümdə təzahürü diqqət çəkir. Birinci yönümdə mifopoetik strukturda ənənəvi obraz olduğu kimi qalır, lakin kontekst dəyişir, obraz yenilənir, mifoloji obrazın simvolik transformasiyası yeni ideyanın meydana çıxmasına şərait yaradır. Digər bir tərəfdən isə, obraz yeni mif modelində təqdim olunur. Qeyd olunur ki, XX əsr Azərbaycan şeirində etnoyaddaşa, mifə söykənən, folklor ənənələrindən gələn simvolik obrazların işləklik funksiyası qeyd olunanlarla bitmir. Zəngin, mürəkkəb epoxal mərhələ kimi ideoloji kanonlar, sosial-siyasi hadisələr, tarixi proseslər bədii təfəkkürə, insanın dünyanı, ətraf aləmi qavrama və dəyərləndirməsinə də təsirsiz ötüşməmişdi. XX əsrin əvvəllərində romantizm yaradıcılıq metodunun əsas bazasını təşkil edən türk mifologiyası, folklor obraz və süjetlərinə qayıdış, əfsanə və rəvayətlərdən gələn və obrazda geniş ideyaya çevrilən təsəvvürlər, eləcə də, dünya mifologiyasının təcrübəsindən yararlanmaq neomifologizmin yaranmasına və mifoloji strukturlu obrazların yeni ideyalarla zənginləşdirilərək təqdiminə yol açdı. Bu isə baza kimi simvolik sistemlərin yenilənməsi, ənənəvi simvolların transformasiyası, yeni interpretasiyada təqdimatda poeziyanın poetik imkanlarını

genişləndirdi. Dissertasiyada bu proseslər nəzəri və bədii nümunələr əsasında XX əsr Azərbaycan şeirinin inkişafında mərhələli şəkildə izlənilir.

- Tədqiqat işində klassik Şərq və Azərbaycan ədəbiyyatının fəlsəfi fikir axınlarından olan, özündə mürəkkəb, zəngin simvollar sistemini formalaşdıran təsəvvüfün XX əsr Azərbaycan şeirində obraz-simvol transformasiyaları izlənilir. Qeyd olunur ki, XX əsrə qədər mifoloji, dini, elmi əsaslara dayalı olan bu simvolik sistem yenilənərək yeni model, "neosufizmi" formalaşdırmışdı. Aparılan araşdırma zamanı klassik şeirin simvolik sisteminin XX əsr Azərbaycan şeiri kontekstində dəyərləndirilməsi simvolik sistemin sosial-ideoloji məzmunda yeni transformasiyalar və interpretasiyada təqdiminə əsas vermişdir.

- Romantik şeirdə mifologiyadan-neomifologizmə, sufizmdən-neosufizmə keçid simvol transformasiyasında romantizm yaradıcılıq metodunun fərqli ifadə və təsvir imkanlarını reallaşdırmışdı. Qeyd olunur ki, milli romantizmdə türk etnik yaddaşı ilə orta çağ İslam zehniyyətinin əsasında bədii düşüncədə mövcud olan klassik Şərq poeziyasının simvolika kompleksinin identivliyi model dəyişimində, neomifologizm və neosufizmə keçiddə yeni simvolik modelin təqdimi ilə şərtlənmişdir. Çox zaman Azərbaycan ədəbiyyatında simvolizmin yaranması daha çox rus simvolistlərinin təsiri, əksərən Türkiyə şairlərindən bəhrələnmə kimi qeyd olunur. Lakin milli poeziyada müəyyən təsirlənmələr əsasında poetik düşüncə öz ənənəsini qorumaqla klassik Şərq ədəbiyyatının təsəvvüf baxış modelinə əsaslanan simvolik sistemi yenilədi.

- Təbiət ünsiyyət dili kimi bədii düşüncənin əsas poetik qaynağıdır, obrazlılıq, paralelizm, metafora, alleqoriya, simvol və s. tropların əsas nüvəsini təbiət təsvirləri, obyekt və predmetləri, obraz və detalları təşkil edir. XX əsrdə insan-təbiət münasibətləri arasında yaranan təzadlıq, disharmoniya, tərəflər arasında əlaqələrin qırılması Azərbaycan şeirinin poetik sisteminə də təsirsiz ötüşmədi. Təbiət yalnız estetik funksiya daşıyıcısı kimi deyil, problem, insanın mənəvi-əxlaqi, ruhi- psixoloji vəziyyətinin təyinedicisi, əsas ifadə elementi kimi universal, ənənəvi, kök simvolların funksiyalarını fəlsəfi, estetik məzmunda yeniləmişdir. Qeyd olunur ki, XX əsr Azərbaycan şeiri həm

ənənəvi, həm universal səciyyəli təbiət obraz-simvolları ilə yanaşı, XX əsrin ortalarına doğrü yeni üslubi təmayüllərin formalaşması, üslub polifonizmi şairin fərdi-intuitiv yaddaşından gələn, zaman, sosial-ictimai mühit, ekocəmiyyətə keçiddə dəyişilən təbiət simvolları ilə də bədii düşüncənin poetik imkanlarını daha da genişləndirmişdir.

- Azərbaycan şeirində işlək funksiyaya malik dağ, ağac,qaya, daş, dəniz, bulaq, Araz və s. obraz-simvolların semantikası, tipoloji fərqlilikləri, funksionallığı Ə.Cavad, A.İldırım, S.Vurğun, R.Rza, Ə.Kərim, M.Araz, Q.Qasımzadə, N.Həsənzadə və başqalarının yaradıcılıq nümunələri əsasında təhlil edilmişdir. Obraz-simvolun tipoloji, semantik funksiyasındakı çoxçalarlılıq, onun məna qatının yenilənməsi, universal, tipoloji xüsusiyyətlərinin transformasiyası simvolun fərdi-intuitiv düşüncə modeli kimi müxtəlif assosiasiyalar və çevrilmələrlə əlaqəli idi. Təbiət obyektlərinin ictimai fikir daşıyıcısına çevrilməsi, ekoloji şüur və düşüncənin təsiri simvolun ənənəvi dərk üsulunda yeni dəyişikliklər yaratmış, eyni obrazın fərqli simvolik çalarlara sahiblənməsi obraz-simvol əlaqələrini dərinləşdirməklə yanaşı simvolun nəzəri statusunu, obrazlılıq elementi kimi imkanlarını genişləndirmişdir.

- Zaman-cəmiyyət tandemi, ideologiya dəyişimində simvolun semantikasında fərqli təzahürlər şərh olunur, simvolların dəyişimi, transformasiyası şairin zamana, ideoloji quruluşa baxış nöqteyi-nəzərindən asılı olaraq dəyişilə və hər bir şairin yaradıcılığında fərqli assosiasiyalar doğura bilər fikri ilə yekunlaşdırılır. Göstərilir ki, bəzən eyni obraz-simvolun ayrı-ayrı şairlərin yaradıcılığında fərqli interpretasiyası onların üslubunun açılması, mənəvi-əxlaqi, ideoloji, siyasi görüşlərinin ümumiləşməsinə istiqamətlənir. Eyni simvolik obrazın çeşidli məna çalarlarının yaranması şairin ictimai-siyasi görüşlərinin, quruluşun təsiri kimi görünür. Deməli, simvol öz-özünə dəyişə və yenilənə bilməz. Aparılan araşdırma zamanı qeyd olunur ki, obraz simvolik məzmun o zaman qazanmış olur ki, bədii mətn üç müstəvini-bədii düşüncə, ideologiya, zaman faktorunu tələb etsin. Simvollaşan obraz, obyekt, predmetin yeni kontekstə keçidi zaman və ictimai-sosial mühitə müdaxilənin konturları dəyişilib yeniləndikdə baş verir. Simvol zamanın spesifik xüsusiyyətlərinin, qabarıq cəhətlərinin bədii obrazda ümumiləşməsidir. Onda mütləq şəkildə dövrün konteksti

olur. Zaman, ideologiya dəyişməsə simvollar da donuq, dəyişməz olaraq qalır. Obrazın interpretasiyası, simvol transformasiyalarını formalaşdıran əsas cəhət zaman faktoru, onu dərk və dəyərləndirmə mexanizmidir.

- Bədii simvolda ekomədəniyyətdən ekocəmiyyətə inteqrasiyada bədii simvol ekopoetikanın əsasında araşdırılmışdır. Qeyd olunur ki, ekomədəniyyətdə insan təbiətin tərkibində onun yalnız bir hissəsi deyil, təbiətin özüdür, təbiətə mənəvi ehtiyacı onunla sıx əlaqələrinin, ünsiyyətinin yaranmasına istiqamətlənmişdir. Ekocəmiyyət modeli insan-təbiət arasında disharmoniya, tərəflər arasında əlaqələrin qırılması, nizamın pozulması, ekoloji böhranın yaranmasına gətirib çıxardı. Bu isə insan-təbiət münasibətlərindən keçid alaraq insan-cəmiyyət əlaqələrinə, ekoloji böhranın yaratdığı problemlərin çərçivəsində psixoloji, fəlsəfi, ictimai-sosial məsələlərin simvollaşmasına, bədii düşüncədə ekopoetika və ekotənqidin əsasında yeni simvolik modelin yaranmasına gətirib çıxardı.

- XX əsrin 1920-ci illər şeirində Qlavlitin əsas vasitələrindən biri kimi polisemiyanın tətbiqi, sovet senzurasının tərkib elementi kimi obraz-simvollara qoyulan qadağalar ədəbi-tənqidi fikrin əsas mübarizə yönümü kimi simvollara da təsirsiz ötüşməmişdi. Dissertasiyada polisemiyanın tətbiqi bir neçə yönümdən (türk mifologiyasına, yaddaşa, xalqın tarixi keçmişinə, istiqlala dayalı olan, hürriyyət məfkurəli şairlərin şeirlərində istifadə olunan obraz – simvollar, təbiət təsvirləri və obyektlərinin siyasi yönümdə obrazlaşdırılmasında mövcud simvollar) araşdırılmışdır.

- Milli mədəniyyətlərdə keçən əsrin 60-cı illərindən başlayaraq yaddaşa, folklora qayıdış və ədəbiyyatın milli meyarlar müstəvisində yenidən dəyərləndirilməsi linqvopoetikanın mürəkkəb problemlərindən olan intertekstuallığın yaranmasına gətirib çıxardı. Bu bir tərəfdən özü-özünü yenidən dəyərləndirmə, özünütəqdim, yaddaşın yenidən oxunması və davamısa, digər bir tərəfdən mədəniyyətlər arasında ortaq məqamların üzə çıxarılmasında xüsusi əhəmiyyət kəsb edirdi. Tədqiqat işində XX əsr Azərbaycan şeirində yaddaş motivinə bədii simvol kontekstində nəzər yetirilmiş, folklor yaddaşının daha güclü və davamlı olduğu qənaətinə gəlinmişdir. Milli şeirimizdə aparıcı olan Araz, qaya, dağ, daş, bulaq və s. obraz – simvolların mədəniyyətin alt qatından

kollektiv və ümumbəşəri yaddaş sferasından bədii düşüncəyə keçərək poeziyanın tarixi təkamülündə şairin fərdi-intuitiv yaddaşından qaynaqlanaraq milli mədəniyyətin yaddaşı ilə sintezləşməsi əsas götürülmüşdür.

- Tədqiqatda bədii mətndə simvolun funksiyası, süjetin qurulmasında poetik kateqoriyaların rolu məsələlərinə nəzəri və bədii materiallar əsasında aparılan təhlillərlə aydınlıq gətirilir və qeyd olunur ki, süjetin komponentləri olduğu kimi simvolun da süjet daxilində öz komponentləri mövcudddur. Simvol süjetin inkişafını istiqamətləndirən, dəyişən, formalaşdıran əsas komponentlərdən biri kimi götürülür.

- Ədəbiyyatşünaslıqda simvol nəzəriyyəsi ilə bağlı aparılan tədqiqatlarda əksərən işarə, metafora, alleqoriya, simvol arasında ortaq məqamların olduğu, onların bəzən bir-birinin sinonimi kimi və yaxud biri digərinin tərkib elementi kimi bu poetik kateqoriyalar arasında sərhəd qarışıqlığı barədə mülahizələr nəzərə çarpır. Dissertasiyada simvol-metafora, simvol-alleqoriya, simvol-detal əlaqələrinə geniş yer verilmiş, onların bir-birinə yaxın və fərqli cəhətləri nəzəri aspektdən əsaslandırılmışdır. Qeyd olunur ki, simvol bütövlükdə bu kateqoriyaların məcmusudur. Yəni simvolu ayrı-ayrı hissələrə bölərək, işarə, metofora, epitet kimi götürmək, daha doğrusu simvolu bu kateqoriyalara bölmək mümkün olduğu halda, onları ayrı-ayrılıqda simvola çevirmək mümkün deyil.

-Simvol və bədii detal əlaqələrindən danışarkən aparılan araşdırma zamanı belə nəticəyə gəlinir ki, bədii detalı simvolla yaxınlaşdıran xüsusiyyət onun simvollaşdıqdan sonra qazandığı xüsusiyyətdir. Bədii mətndə müəllif istənilən qədər detallardan istifadə edə bilər. Lakin simvolda məna konkret bir obraz ətrafında mərkəzləşir. Bədii detal vasitəsilə qəhrəmanın psixoloji durumu, zahiri görkəm və əlamətləri, "obrazı vizuallaşdırmağa kömək edir", hadisə və situasiyanın təfərrüatları açılıb mənalandırılır. Gerçəklik faktı olaraq onun üçün gizli məqam yoxdur. Lakin simvollaşdıqda detal öz gerçək mənasından uzaqlaşır, ideyanı və məzmunu açmaq üçün oxucuya real imkanlar yaratmış olur.

- Dissertasiyada XX əsr Azərbaycan şeirində rəng simvollarının poetik tərtibatı, rənglərin ənənəvi funksiyası və poeziyada təzahürü,

rənglərin ideya-məzmun xüsusiyyətlərinin konkret zamanın ictimai – psixoloji durumuna uyğun olaraq dəyişməsi, ideoloji faktorların rəng simvollarında əyaniləşməsi izlənilmişdir.

Beləliklə, XX əsr Azərbaycan şeirində bədii simvolun poetikasını, ideya-məzmun xüsusiyyətlərini hərtərəfli, müxtəlif mərhələlər üzrə araşdırarkən yalnız dar zaman çərçivəsində deyil, tarixi, etno-mədəni sistemlər əsasında intertekstual təhlillər aparılmış, bədii simvolu yeni interpretasiyada təqdim, transformasiyaları, simvolik sistemlərin cərəyanlar və mərhələlər üzrə dəyişilib yenilənməsi, simvolun özünə yaxın poetik kateqoriyalarla oxşar və fərqli cəhətləri tədqiq edilmişdir. Təhlil metodlarına əsaslanaraq ənənəvi-kulturoloji, semiotik-semantik təhlil, mifoloji semantika, mifopoetik təfəkkür, yeni nəzəri sistemlərin təsiri yönümündə dəyişilən simvolik sistemlər əsasında simvol probleminə konseptual yanaşılmışdır.

**Dissertasiyanın əsas mövzusu və müddəaları müəllifin aşağıdakı məqalə və konfrans materiallarında öz əksini tapmışdır:**


1. Qarayeva, G. 1920-1930-cu illər Azərbaycan şeirində rəng simvolikası// – Bakı: Filologiya və sənətşünaslıq, – 2019. №1, – s. 77-82
2. Qarayeva, G. Bədii obrazda poetik kateqoriyaların funksionallığı // – Bakı: Poetika.izm, – 2019. № 1, – s.24-29
3. Qarayeva, G. Romantik şeirdə simvol fərdiliyi // – Bakı: Azərbaycan ədəbiyyatşünaslığı, – 2020. № 2, – s. 71-78
4. Qarayeva, G. Azərbaycan Xalq Cümhuriyyəti – simvolik polisemiya və sovet senzurası // – Bakı: Bakı Universitetinin Xəbərləri, – 2020. № 4, – s. 51-58
5. Garayeva, G. XX. Yüzyıl Azerbaycan ve türk romantik şiirinde neo-tasavvuf // – İstanbul: Dergi Park. Akra Kültür Sanat ve Edebiyat Dergisi, – 2021. – s 25, c 9, – s. 91-102
6. Garayeva, G. Sovet mifoloji modelində simvol transformasiyası // - İstanbul: Dergi Park. Akra Kültür Sanat ve Edebiyat Dergisi, – 2023. s 30, c 11, – s. 43-53

7. Garayeva, G. XX.Yüzyıl Azerbaycan şiirinde folklor sembolleri // – Kıbrıs: Folklor/Edebiyat. DOI: 10.22559/folklor.2278, – 2023. №1, – c. 29, - s. 113, – s. 31-48
8. Qarayeva, G. Məmməd Araz poeziyasında yaddaş intertekstuallığı// – Bakı: Poetika.izm, – 2023. № 2, – s. 25-35
9. Qarayeva, G. Bədii yaradıcılıqda simvol-metafora əlaqələri //– Bakı: Azərbaycan ədəbiyyatşünaslığı, – 2024. № 1, – s. 100-107
10. Garayeva, G. The Role of the Symbol in the Formation of Plot // – Baku: Khazar Journal of Humanities and Social Sciences, – 2024. № 2, – 127-143
11. Qarayeva, G. Poetik fikrin təkamülündə bədii obraz və simvol //– Bakı: Poetika.izm, – 2024. № 2, – s. 48-55
12. Qarayeva, G. Bədii simvolda ekomədəniyyətdən ekocəmiyyətə inteqrasiya// - Bakı: Bakı Qızlar Universitetinin "Elmi əsərlər"i, – 2024. № 4, – s. 185-189
13. Garayeva, G. The functionality of symbol and artistic minutiae in Azerbaijan poetry of the 1920-1960s// – Poland, Warszawa: Colloquium-journal, – 2025. № 40, – s. 61-65
14. Garayeva, G. Criteria for the nationalization of the artistic symbol // – Malatya: Dergi Park.Usbad Uluslararası Sosial Bilimler Akademi Dergisi, – 2025. s. 17, – s. 179-193
15. Qarayeva, G. 1920-60-cı illər Azərbaycan şeirində təbiət obyekt və predmetlərinin simvolik funksiyası // – Bakı: Azərbaycan ədəbiyyatşünaslığı, – 2025. № 1, s. 81- 89
16. Qarayeva, G. Bədii simvolda lirik "mən", zaman və cəmiyyət //– Bakı: Filologiya məsələləri, – 2025. №1, – s.440-444
17. Qarayeva, G. Azərbaycan ədəbiyyatında dağ simvolu// – Bakı: Filologiya məsələləri, – 2025. №2, – s.321-326
18. Qarayeva, G. Simvolda milli müəyyənlik// "Müqayisəli ədəbiyyat və mədəniyyət: Ədəbiyyatın və mədəniyyətin başlanğıc meyarları. (Konfrans materialları), – Beynəlxalq elmi konfrans, – Bakı: - 27-28 noyabr 2015. – s. 11
19. Караева, Г. Символика красок в модернизма Р.Рзы // – Tbilisi: – Contemporary Issues of Literary Criticism. Modernism in Literature Environment, Themes, Names, 2016, – c.485-494

20. Qarayeva, G. Azərbaycan və türk şeirində günəş, ay, ulduz simvolları// Azərbaycan-Türkiyə münasibətləri II Beynəlxalq Elmi Konfransının Materialları, – Bakı: – 12-14 oktyabr 2017, – Kastamonu: – 2018, – s.263-270
21. Garayeva, G. Symbolism of Dzhumhuriyyuet and the Transformation of Symbols in the Azerbaijani Poetry of 1920-1930-s // XII İnternational Symposium Contemporary Issues of Literary Criticism The Idea of State Sovereignty and XX Centure Literature. TSU Shota Rustaveli İnstitute of Georgian Literature, - Tbilisi: – 2018, – c. 98
22. Garayeva, G. XX.Yüzyıl Azerbaycan ve Türk Şiirinde Tasavvuf Simgesinin İdentifikasyonu// XVIII.Türk Tarih Kongresi, – Ankara: – 1-5 Ekim 2018, – XII c, – (Kongreye sunulan bildiriler), – Türk dili ve Edebiyyatı Tarihi: 2022, – s. 201-215
23. Qarayeva, G. Rəsul Rza şeirində bədii simvol// Klassik Azərbaycan Ədəbiyyatı və İncəsənətinin Milli Özünütəsdiqdə və Mərkəzi Asiyadakı Mədəni Tərəqqidə Yeri .Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinin yaradılmasının 80-ci ildönümünə həsr olunmuş Beynəlxalq Elmi Konfransın Materialları, – Bakı: – 23-25 dekabr 2020, – s. 183-184
24. Qarayeva, G. Məmməd Araz poeziyasında yaddaş// Heydər Əliyev 100. Azərbaycanşünaslığın aktual məsələləri: (2 clddə)/ Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş XIV Beynəlxalq Elmi Konfransın Materialları, – Bakı: – 4-5 may 2022. – c.2. - s. 122-124
25. Garayeva, G. The Tandem of Time and Society in Artistik Symbolism// XVII İnternational Symposium. Contemporary Issues Of Literary Criticism. Literatures of Small Countries and Challenges of the Modern Global Word. TSU Shota Rustaveli Institute of Georgian Literature, – Kutaisi: 25- 27 september 2024. – p. 664-670

Dissertasiyanın müdafiəsi 25 sentyabr 2025-ci il tarixində saat 12³⁰-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1073, Bakı ş., H.Cavid pr. 117, Akademiya şəhərciyi, Əsas bina, IV mərtəbə, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron akt zalı.

Dissertasiya ilə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 15 iyul 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 30.06.2025

Kağızın formatı: A5

Həcmi:77538

Tiraj: 100